YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 iyul
2026-cı il,
şənbə
№ 120 (7187)
Qiymәti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Azərbaycan regionda sabitliyin və inkişafın təminatçısıdır



Bax səh. 2

# Hərbi sahədə əməkdaşlıq uğurla inkişaf edir

Bax səh. 4

## İqtisadiyyat böyüyüb, gəlirlər artıb

Bax səh. 2

## Qələmi ilə cəhalətə meydan oxuyan maarifçi!

Bax səh. 8

## Provayderlərin məsuliyyəti artırılır

Bax səh. 5

## Məktəblərdə yeni dəyərlər sistemi formalaşır...

Bax səh. 7




Bax səh. 3

## TDT-nin yeni əməkdaşlıq platforması

## Azərbaycanın unikal multikulturalizm modeli dünyaya təqdim olunur

Bax səh. 3

## Milli Məclisin iclasında... Millət vəkilləri 22 məsələni müzakirə ediblər

Bax səh. 5

## Qlobal ərzaq böhranı - Aİ çıxış yolu axtarır

Bax səh. 6

## Ernəzir kəndi: Tarixi yaddaş, milli kimlik və gələcəyə olan ümid

Bax səh. 4

# Yaxın Şərq: müharibəyə davam, yoxsa danışıqlar masasına qayıdış...



Bax səh. 7

# Azərbaycan regionda sabitliyin və inkişafın təminatçısıdır

## Türkiyə-Azərbaycan əməkdaşlığı bölgədə təhlükəsizliyin möhkəmlənməsinə töhfə verir



XXI əsrin ikinci onilliyinin sonlarından etibarən beynəlxalq münasibətlər sistemində müşahidə olunan geosiyasi dəyişikliklər regional təhlükəsizlik modellərinin də yenidən nəzərdən keçirilməsini zəruri edib. Enerji marşrutları, nəqliyyat dəhlizləri, ərzaq təhlükəsizliyi və yeni iqtisadi əlaqələr artıq dövlətlərin hərbi potensialı qədər əhəmiyyət daşıyan amillərə çevrilib. Məhz belə mürəkkəb beynəlxalq şəraitdə Cənubi Qafqaz yeni geosiyasi rəqabətin deyil, əməkdaşlıq platformasının formalaşdığı məkan kimi ön plana çıxmağa başlayıb. Bu prosesdə isə Azərbaycanın rolu xüsusi əhəmiyyət kəsb edir.

2020-ci ildə başa çatan Vətən müharibəsindən sonra yaranmış yeni siyasi reallıqlar regionun təhlükəsizlik arxitekturasını köklü şəkildə dəyişdirdi. Rəsmi Bakı uzun illər davam edən işğal problemini aradan qaldırmaqla yanaşı, separatizm faktorunu da gündəmdən çıxardı və beynəlxalq hüquqa əsaslanan yeni təhlükəsizlik modeli formalaşdırdı. Bunun nəticəsində Cənubi Qafqazda uzunmüddətli sabitliyin təmin olunması üçün real siyasi və hüquqi baza yarandı. Azərbaycanın irəli sürdüyü yanaşma hərbi üstünlüyün qorunması ilə yanaşı, iqtisadi inteqrasiya, regional kommunikasiyaların açılması, enerji əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı asılılığın artırılması kimi prinsipləri də özündə birləşdirir.

Bu gün Azərbaycan Avropa ilə Asiyanı birləşdirən əsas geoiqtisadi qovşaqlardan biri hesab olunur. Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi çıxış edən Bakı eyni zamanda Orta Dəhlizin əsas həlqəsini təşkil edir. Qlobal ticarət marşrutlarının dəyişdiyi, alternativ nəqliyyat xətlərinə ehtiyacın artdığı bir dövrdə Azərbaycanın strateji mövqeyi daha da möhkəmlənir. Avropa İttifaqı, Türkiyə, Çin, Mərkəzi Asiya dövlətləri və digər mühüm aktorların Bakı ilə əməkdaşlığı genişləndirmək istəyi də məhz bu reallıqdan irəli gəlir. Azərbaycanın təqdim etdiyi təhlükəsizlik modeli yalnız regional sabitliyə deyil, bütövlükdə Avrasiya məkanında iqtisadi və siyasi balansın qorunmasına xidmət edir. Bakı artıq təkcə coğrafi baxımdan deyil, həm də yeni təhlükəsizlik məntiqinin formalaşdığı əsas mərkəzlərdən biri kimi çıxış edir.

**Yeni təhlükəsizlik nizamı...**

Son illərdə beynəlxalq təhlükəsizlik sistemində baş verən hadisələr göstərir ki, klassik hərbi ittifaqlar fəaliyyət prinsiplərini dəyişmək məcburiyyətində qalırlar. Müasir dövrdə təhlükələr yalnız dövlətlərarası müharibələrlə məhdudlaşmır. Enerji təhlükəsizliyi, kibertəhlükəsizlik, miqrasiya, terrorizm, kritik infrastrukturun qorunması və logistika marşrutlarının təhlükəsizliyi artıq təhlükəsizlik anlayışının ayrılmaz hissəsinə çevrilib. Belə bir şəraitdə regional güclərin rolu daha da artır və onlar qlobal təhlükəsizlik sisteminin mühüm elementinə çevrilirlər.

NATO-nun son Ankara Sammiti və sammitdə qəbul olunan qərarlar da bu tendensiyanı təsdiqləyir. Ankara Zirvəsi bir daha təsdiqlədi ki, Alyans daxilində Türkiyənin rolu əvvəlki illərlə müqayisədə daha da güclənib. Güclü müdafiə sənayesi, müstəqil xarici siyasət kursu, vasitəçilik təşəbbüsləri və müxtəlif regionlarda əldə etdiyi təcrübə Ankaranı Avrasiyanın əsas təhlükəsizlik aktorlarından birinə çevirib. Türkiyə artıq yalnız NATO-nun cənub cinahını qoruyan dövlət deyil, həm də Qara dəniz hövzəsi, Şərqi Aralıq dənizi, Yaxın Şərq, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında strateji körpü funksiyasını yerinə yetirir.

Yeni təhlükəsizlik nizamında regional əməkdaşlıq mexanizmləri qlobal təhlükəsizlik sistemini tamamlayan əsas elementlərdən biri hesab edilir. Bu baxımdan Türkiyənin Azərbaycanla qurduğu strateji tərəfdaşlıq xüsusi əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsi ilə rəsmi müttəfiq statusu əldə etmiş Ankara və Bakı həm hərbi əməkdaşlıq, həm enerji layihələri, həm də nəqliyyat-kommunikasiya xətlərinin formalaşdırılması sahəsində vahid yanaşma nümayiş etdirirlər. Bu model yalnız iki ölkənin maraqlarına xidmət etmir, eyni zamanda Avropa ilə Asiyanı birləşdirən geniş coğrafiyada təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verir. Yeni dövrdə məhz bu regional əməkdaşlıq formatları qlobal təhlükəsizlik sistemində daha çox əhəmiyyət qazanır.

**Bakının təhlükəsizlik fəlsəfəsi...**

Azərbaycanın son illərdə həyata keçirdiyi siyasət göstərir ki, təhlükəsizlik anlayışı yalnız hərbi qüdrətlə məhdudlaşdırılmır. Rəsmi Bakı regional sabitliyin iqtisadi inteqrasiya, qarşılıqlı maraqlar və uzunmüddətli əməkdaşlıq vasitəsilə möhkəmləndirilə biləcəyini nümayiş etdirir. 2020-ci ildən sonra yaranmış yeni reallıqlar məhz bu yanaşmanın praktik nəticəsi kimi qiymətləndirilə bilər. Bölgədə separatizm faktorunun aradan qaldırılması və dövlət suverenliyinin tam təmin olunması yeni inkişaf mərhələsinin əsasını formalaşdırıb.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Vurğulandığı kimi, Orta Dəhlizin inkişafı Şərqlə Qərb arasında yükdaşımaların daha təhlükəsiz və səmərəli həyata keçirilməsinə imkan yaradır. Bu isə Azərbaycanın yalnız tranzit ölkəsi deyil, həm də regional sabitliyin əsas təminatçılarından biri kimi qəbul edilməsinə səbəb olur.

Bakının təhlükəsizlik fəlsəfəsinin əsas xüsusiyyətlərindən biri qarşıdurma deyil, əməkdaşlıq platformalarının təşviq edilməsidir. Kommunikasiyaların açılması, yeni iqtisadi əlaqələrin qurulması, investisiya mühitinin genişləndirilməsi və regional inteqrasiyanın dərinləşdirilməsi uzunmüddətli sabitliyin əsas şərtləri kimi təqdim olunur. Ermənistanın da bu proseslərə konstruktiv yanaşması regionun bütün dövlətləri üçün yeni iqtisadi imkanlar yarada bilər.

Bütün bunlar Azərbaycanın Avrasiyada geosiyasi əhəmiyyətini daha da artırır. Bakı yalnız enerji ixrac edən ölkə deyil, həm də müxtəlif siyasi mərkəzlər arasında dialoqun qurulduğu, qlobal nəqliyyat marşrutlarının kəsişdiyi və təhlükəsizlik mexanizmlərinin formalaşdığı mühüm platformaya çevrilir. Məhz buna görə də beynəlxalq tərəfdaşlar Azərbaycanla strateji əməkdaşlığı uzunmüddətli təhlükəsizlik konsepsiyasının ayrılmaz hissəsi hesab edirlər.




**Ankara-Bakı tandemi bölgənin aparıcı güc mərkəzi kimi**

Qeyd olunduğu kimi, Azərbaycan ilə Türkiyə arasında münasibətlər son illərdə keyfiyyətcə yeni mərhələyə yüksəlib. Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərini hüquqi müstəviyə daşımaqla yanaşı, regional təhlükəsizlik sisteminin əsas sütunlarından birini formalaşdırıb. Müdafiə, enerji, nəqliyyat, iqtisadiyyat və diplomatiya sahələrində koordinasiyanın güclənməsi Ankara-Bakı tandemini artıq Mərkəzi Asiya-Kiçik Qafqaz-Kiçik Asiya geostrateji coğrafiyasında mühüm təhlükəsizlik çətiri kimi ön plana çıxır, Avrasiya məkanının aparıcı geosiyasi mərkəzlərindən birinə çevirir.

Bu əməkdaşlığın ən mühüm xüsusiyyətlərindən biri onun yalnız iki dövlətin milli maraqlarına xidmət etməməsidir. Əksinə, formalaşan yeni təhlükəsizlik modeli regionda sülhün, iqtisadi inkişafın və qarşılıqlı etimadın möhkəmlənməsinə hesablanıb. Mərkəzi Asiyadan Avropaya qədər uzanan geniş coğrafiyada enerji və nəqliyyat layihələrinin uğurla həyata keçirilməsi də məhz bu siyasi sabitlikdən qaynaqlanır.

Avropa İttifaqı, ABŞ, Çin və digər böyük güclərin regiona marağının artması da təsadüfi deyil. Şərq-Qərb ticarət marşrutlarının təhlükəsiz fəaliyyəti, alternativ logistika xətlərinin inkişafı və enerji resurslarının şaxələndirilməsi Bakı-Ankara əməkdaşlığını qlobal iqtisadiyyat üçün strateji əhəmiyyətli edir. Zəngəzur dəhlizinin perspektivləri də bu kontekstdə xüsusi diqqət çəkir. Həmin marşrut reallaşacağı təqdirdə türk dünyasının inteqrasiyasını gücləndirməklə yanaşı, Avropa ilə Asiya arasında yeni iqtisadi əlaqələrin inkişafına əlavə imkanlar yaradacaq.

Yeni geosiyasi şəraitdə Ankara-Bakı tandemi regional təşəbbüslərin əsas müəlliflərindən biri kimi çıxış edir. Bu əməkdaşlıq modeli göstərir ki, qarşılıqlı etimad, ortaq maraqlar və uzunmüddətli strateji planlaşdırma regional təhlükəsizlik sisteminin ən mühüm təminatlarından biridir.

**Bakının təhlükəsizlik gündəmində rolu daha da artacaq**

Beləliklə, dünyada geosiyasi rəqabətin artdığı, təhlükəsizlik çağırışlarının mürəkkəbləşdiyi indiki mərhələdə regional güc mərkəzlərinin əhəmiyyəti daha da yüksəlir. Göründüyü kimi, Cənubi Qafqaz da bu prosesdən kənarda qalmır və son illərdə baş verən dəyişikliklər göstərir ki, bölgədə yeni təhlükəsizlik arxitekturası formalaşır. Bu modelin əsas xüsusiyyəti hərbi qarşıdurmanın deyil, iqtisadi inteqrasiyanın, enerji əməkdaşlığının və nəqliyyat-kommunikasiya layihələrinin ön plana çıxarılmasıdır.

Azərbaycanın həyata keçirdiyi siyasət ölkəni regionun əsas təhlükəsizlik təminatçılarından birinə çevirib. Türkiyə ilə strateji müttəfiqlik, beynəlxalq tərəfdaşlarla genişlənən əməkdaşlıq, Orta Dəhlizin inkişafı və enerji təhlükəsizliyinə verilən töhfələr Bakının geosiyasi mövqeyini daha da möhkəmləndirir. Bu reallıq Azərbaycanın yalnız Cənubi Qafqaz üçün deyil, bütövlükdə Avrasiya məkanında sabitliyin qorunmasında mühüm rol oynayacağını göstərir.

Qarşıdakı dövrdə regional əməkdaşlıq platformalarının genişlənməsi, yeni kommunikasiya xətlərinin istifadəyə verilməsi və iqtisadi inteqrasiyanın dərinləşməsi Bakının təhlükəsizlik gündəmində rolunu daha da artıracaq. Beləliklə, Azərbaycan yeni geosiyasi mərhələdə təkcə strateji coğrafi mövqeyi ilə deyil, formalaşdırdığı təhlükəsizlik fəlsəfəsi və əməkdaşlıq modeli ilə də regional sabitliyin əsas dayaqlarından biri kimi çıxış etməyə davam edəcək.

***P.İSMAYILOV***

## ABŞ-da Azərbaycanın strateji rolu və biznes imkanları təqdim olunub

İyulun 7-9-da xarici işlər nazirinin müavini Elnur Məmmədov ABŞ-nin Yuta və Kaliforniya ştatlarında işgüzar səfərdə olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, səfər zamanı Yuta ştatının siyasi, təhsil və biznes liderləri, o cümlədən texnologiya şirkətləri ilə görüşlər keçirilib.

Yuta ştatına səfər çərçivəsində nazir müavini Elnur Məmmədov Yuta ştatı Senatının prezidenti Stüart Adams, “İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsi”nin “Yetmiş Həvari Kvorumu”nun üzvü Cek Gerard, Yuta Universitetinin prezidenti Teylor Randal, Stirlinq Fondunun prezidenti Mayls Hansen ilə işçi görüşlər keçirib və mümkün praktiki əməkdaşlıq məsələlərini müzakirə edib.

Həmçinin E.Məmmədov Yuta Ümumdünya Ticarət Mərkəzində Yuta ştatının biznes və texnologiya şirkətləri üçün Azərbaycanın strateji rolu və biznes imkanları barədə çıxış edib.

Kaliforniya ştatına işgüzar səfər çərçivəsində nazir müavini “Nvidia” şirkətinin mənzil qərargahında şirkətin Beynəlxalq və Hökumətlərlə Əməkdaşlıq üzrə vitse-prezidenti Ned Finkl ilə görüş keçirib və mümkün əməkdaşlıq məsələlərini müzakirə edib. Bundan əlavə, E.Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti “Nvidia” şirkətində süni intellektin dövlət idarəçiliyində əhəmiyyəti, rəqəmsal transformasiyanın vətəndaş xidmətlərinə təsiri və innovativ yeniliklərin tətbiqi imkanları ilə tanış olub.

Bununla yanaşı, San Xose şəhərinin “Süni İntellekt” Mərkəzində şəhər idarəçiliyi və vətəndaş xidmətlərində Azərbaycanın və adıçəkilən şəhərin göstərdiyi xidmətlər haqqında məlumat mübadiləsi aparılıb.

# İqtisadiyyat böyüyüb, gəlirlər artıb

## 2026-cı ilin birinci yarısında ÜDM 0,8 faiz böyüyüb

2026-cı ilin birinci yarısında ölkəmizdə ümumi daxili məhsul (ÜDM) 0,8 faiz artaraq 65 milyard 207 milyon manat təşkil edib. Neft-qaz sektorunda ÜDM nominal dəyər ifadəsi ilə 19,6 milyard manat təşkil edib və bu sektorda 0,7 faiz azalma qeydə alınıb. İqtisadiyyatın qeyri neft-qaz sektorunda isə əlavə dərərin həcmi 45 milyarda 596 milyon manatı ötüb və ÜDM-in artım tempi 1,5 faiz təşkil edib. Göründüyü kimi, ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, yaradılmış əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib.

| Göstəricinin adı | 2026-cı ilin yanvar - iyun ayları | 2026-cı ilin yanvar - iyun ayları 2025-ci ilin müvafiq dövrünə nisbətən |
| --- | --- | --- |
| A | B | C |
| | | Real artım |
| **İqtisadi artım**, *milyon manat* | | |
| **Ümumi daxili məhsul (ÜDM)** | **65 207,0** | +0,8% |
| *neft-qaz ÜDM* | 19 610,5 | -0,7% |
| *qeyri neft-qaz ÜDM* | 45 596,5 | +1,5% |

Ötən 6 ay ərzində kənd təsərrüfatı məhsulunun həcmi 2,2 faiz artaraq 7 milyard manatı ötüb. ÜDM-in tərkibində nəqliyyat və anbar təsərrüfatı xidmətlərinin dəyəri 7,8 milyard manata çataraq 8 faiz yüksəlib. İnformasiya və rabitə xidmətləri sektorunda yaradılan dəyərin nominal həcmi isə 2 milyard manata yaxın olub. Bu sektorda 7,5 faiz artım əldə edilib.

**Qeyri-neft sənayesində artan əlavə dəyər**

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi kimi sənaye sektorunda istehsalın dəyəri 33 milyard manatı ötməklə 0,1 faiz artım qeydə alınıb. Qeyri neft-qaz sənayesində yaradılmış əlavə dəyərin həcmi 10 milyard 769,6 milyon manat təşkil etməklə 4,1 faiz artım nümayiş etdirib. Xüsusilə də qeyri neft-qaz sənayesində əlavə dəyər 5 faizə yaxın artıb. Ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərinin artmasında sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin “Araz Vadisi İqtisadi Zonası”nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas dəyər formalaşdıran sahə olduğunu göstərir.

**Büdcədə qeyri-neft gəlirlərinin həcmi yüksəlib**

2026-cı ilin birinci yarısında fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 19,2 milyard manata çataraq proqnozu 350,5 milyon manat və ya 1,9 faiz üstələyib. Büdcənin xərcləri isə 17 milyard 230,6 milyon manat proqnoza qarşı 16 milyard 775,5 milyon manat məbləğində icra edilib ki, bu da 97,4 faiz təşkil edir. İcmal büdcənin gəlirləri 24 milyard 414,1 milyon manat, xərcləri isə 19 milyard 824,4 milyon manat məbləğində icra edilib. Ümumilikdə, büdcədə 2,4 milyard manat həcmində profisit yaranıb.

Bu dövrdə xəzinə əməliyyatlarına dair müraciətlərin qanunvericiliyin tələblərinə uyğun, sürətli və xətasız icrası təmin edilib, xəzinədarlıq orqanları tərəfindən 624 mindən çox ödəniş tapşırığı vaxtında və tam şəkildə icra edilib.

Cari ilin yanvar-iyun ayları ərzində Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə daxilolmaların həcmi 8 milyard 842,7 milyon manat təşkil edib. Bu, proqnoza nisbətən 217,7 milyon manat çoxdur. 2025-ci ilin müvafiq dövrünə nisbətən vergi daxilolmaları 139 milyon manat və ya 1,6 faiz çox təşkil edib. Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 7 milyard 67,4 milyon manat təşkil edib və büdcəyə proqnozdan əlavə 199,4 milyon manat vəsait ödənilib. 2025-ci ilin müvafiq dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 645,8 milyon manat və ya 10,1 faiz artıb.




Birinci yarımildə Azərbaycanın xarici dövlət borcu 8 faiz azalaraq 4,6 milyard dollar təşkil edib. Ölkəmizin strateji valyuta ehtiyatları bu dövrdə 10 faizdən çox artaraq 85 milyard 768,9 milyon dollara yüksəlib. Eləcə də, maliyyə-bank sistemində aktivlik müşahidə edilib və iqtisadiyyata kredit qoyuluşları 32 milyard 908,4 milyon manat olmaqla 9 faiz artıb.

Ötən aylar ərzində Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmində 9,5 faiz dinamika qeydə alınıb və əmtəə mübadiləsinin dəyəri 22 milyard 164,6 milyon dollar təşkil edib. Xarici ticarət balansında ixracın həcmi 15,3 milyard dollar, idxalın dəyəri isə 6,8 milyard dollara bərabər olub.

**Orta aylıq əməkhaqqı 7,3 faiz, investisiya qoyuluşları 13,8 faiz artıb**

2026-cı ilin yanvar-iyun aylarında əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb. Əhalinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,3 faiz artaraq 47, 3 milyon manat təşkil edib. Orta aylıq əməkhaqqı isə yanvar-may ayları üzrə 7,3 faiz artaraq 1175 manata çatıb. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. İnflyasiya isə 6 ay ərzində 5,7 faizə bərabər olub. Fiziki şəxslərin banklardakı əmanətlərinin həcmi isə 18 faiz artaraq 17 milyard 799,8 milyon manata çatıb.

Cari ilin yanvar-iyun aylarında əsas kapitala investisiyaların həcmi isə 9 milyard 295,2 milyon manat təşkil edib ki, bu da 13,8 faiz artım deməkdir. Sərmayələrin təxminən 70 faizi və yaxud 6,1 milyard manatı qeyri neft-qaz sektoruna yönəldilib.

***E.CƏFƏRLİ***

# Azərbaycanın unikal multikulturalizm modeli dünyaya təqdim olunur

Dünyada az sayda ölkə tapılar ki, Azərbaycan kimi multikulturalizmi beynəlxalq səviyyədə güclü şəkildə təşviq etsin. Artıq respublikamızın məmnuniyyətlə ev sahibliyi etdiyi multikulturalizmlə bağlı platformalar bütün dünyada tanınır və qəbul edilir.

Bunun təsdiqi olaraq elə bugünlərdə cari ilin oktyabrında Bakıda təşkil olunacaq VII Mədəniyyətlərarası Dialoq Forumu ilə əlaqədar Almaniya ictimaiyyətini və media mühitini məlumatlandırmaq məqsədilə Azərbaycanın Almaniyadakı səfirliyinin və Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə təqdimat keçirilib. Almaniyanın bir sıra media qurumlarının nümayəndələrinin iştirak etdikləri tədbirə tanınmış jurnalist Evald Köniq moderatorluq edib.









**Dünya çətin sınaqla üz-üzə**

Hazırda dünya çox çətin bir dönəmdən keçir. İlk baxışda internet əsrində yaşadığımıza görə dünya daha əlaqəli görünür, reallıq isə tamam fərqlidir, əslində, parçalanmanın getdikcə daha geniş miqyas aldığı müşahidə olunur. Səngimək bilməyən müharibələr, iqlim dəyişmələri xalqları ciddi sınaqlarla üz-üzə qoyub. Dünyanın olduqca narahat mənzərəsinin digər bir mühüm əlaməti mədəniyyətlərarası dialoqla bağlıdır. Bir sıra hallarda sivilizasiyalararası qarşıdurmaların müşahidə edilməsi son dərəcə kədərli təəssüratlar oyadır. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır.

Bütün səmavi dinlər bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta dini dəyərlər belə manipulyasiya predmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan "qoca qitə"də bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, islamafobiya həyat normasına çevrilir. Son illərdə Yaxın Şərqdə alovlanan münaqişələrin və müharibələrin ssenariləri bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan xilas olamaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır. Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi Avropa ölkələrinin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir ki, bu da qəbuledilməzdir.

**Azərbaycanın tarixi ənənəsi**

Təqdimat mərasimində Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxış edərək ölkəmizin əsrlər boyu müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət şəraitində birgə yaşadığı unikal multikulturalizm modeli olduğunu diqqətə çatdırıb. Səfir Azərbaycanın bu zəngin daxili təcrübəsini qlobal müstəviyə daşıyaraq, sivilizasiyalararası dialoqa xidmət edən və beynəlxalq səviyyədə yüksək qiymətləndirilən Bakı prosesi və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi nüfuzlu təşəbbüslərin müəllifi olduğunu vurğulayıb. Diplomat qeyd edib ki, qlobal geosiyasi gərginliklərin artdığı müasir dövrdə Bakıda təşkil olunan bu forumlar fərqli mədəniyyətləri vahid platformada birləşdirməklə dünyada sülh, barışıq və anlaşma mühitinə əvəzolunmaz töhfələr verir.

Tolerantlığın idealist yanaşma olduğunun və iflasa uğradığının təqin edildiyi bir dövrdə  Azərbaycanın multikulturalizmi cəsarətlə təşviq etməsi heç də təsadüfi deyil. Prezident İlham Əliyev ölkəmizin bundan əvvəl ev sahibliyi etdiyi və "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində söylədiyi nitqində bunu şərtləndirən bir sıra mühüm amillərə diqqət çəkərək ölkəmizin mövqeyini bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. "Əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub. Bizim coğrafi mövqeyimiz, Şərq ilə Qərb arasında yerləşməyimiz, əslində, bu tendensiyaya imkan yaradıb. Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir", - deyə dövlətimizin başçısı vurğulayıb.



**Ölkənin müasir mənzərəsi**

Respublikamızda tarixdən gələn tolerantlıq ənənələri bu gün də davam etdirilir. Son illərdə paytaxt Bakıda və regionlarda İslam dininə aid abidələr yüksək səviyyədə təmir edilərək onlara ikinci həyat verilib. Hazırda Heydər Əliyev Fondu qurumun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə işğaldan azad edilmiş ərazilərdə erməni vandalları tərəfindən dağıdılmış abidələrin bərpasını həyata keçirir.

Lakin respublikamızda tarixi-dini abidələrə belə diqqət və qayğı yalnız İslam dininə aid məscidləri əhatə etmir. Digər dinlərə aid abidələrə də eyni həssas münasibət bəslənilir. O cümlədən, ölkəmizdəki xristian icması Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir və bu icmaya məxsus tarixi mədəni-dini abidələr dövlət tərəfindən qorunur. Bakıdakı Rus Pravoslav Baş Kafedral kilsəsinin ("Jen Mironosits" pravoslav kafedral kilsəsi), "Xilaskar" Yevangelik-lüteran kilsəsinin, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav kilsəsinin dövlət tərəfindən təmir edilməsi buna misaldır. Eləcə də Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Qəbələdəki Çotari Alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. Fond tərəfindən Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsində aparılan əsaslı təmir işləri tamamlanıb. Otuz illik işğal dövründə Ermənistandakı və zəbt olunmuş ərazilərimizdəki abidələrimiz vəhşicəsinə dağıdılıb və təhqirlərə məruz qalıb. Buna baxmayaraq, Bakının mərkəzi hissəsində yerləşən erməni kilsəsi dövlət tərəfindən qorunur. Burada erməni dilində 5 min qədim kitablar da mühafizə edilərək saxlanılır.

**Çox mühüm beynəlxalq platforma**

Təqdimat mərasimində çıxış edən Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri İsa Məmmədov Bakı prosesi və oktyabrda keçiriləcək VII Mədəniyyətlərarası Dialoq Forumu barədə geniş təqdimatla çıxış edib. Təqdimatda qeyd olunub ki, 2008-ci ildə əsası qoyulan Bakı prosesi mədəniyyətlərarası dialoqu gücləndirən nüfuzlu qlobal platformaya çevrilib.

Bakı prosesinin təşəbbüsü Prezident İlham Əliyevdən gəlib. Burada əsas ideya Şərq-Qərb dialoqunu təşviq etməkdir və Azərbaycan Bakı prosesi vasitəsi ilə buna uğurla nail olur. Belə ki, dünyada ilk dəfə paytaxtımızda Qərbi və Şərqi təmsil edən beynəlxalq təşkilatların nümayəndələrinin birgə iştirakı ilə tədbirlər təşkil olunub və faydalı müzakirələr aparılıb. Bu, təhdidlərlə üzləşən dünya üçün gözəl nümunədir.

Sonradan bu təşəbbüs daha da genişləndirilib. Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair Bakı prosesinin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə paytaxtımızda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci, 2019-cu və 2024-cü illərdə təşkil olunub. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər şəxslər və nümayəndələr qatılıblar. Eyni zamanda, forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub. Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən altı forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və Bakı prosesi mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib.

***Mübariz ABDULLAYEV***

# TDT-nin yeni əməkdaşlıq platforması

## Maliyyə Kəşfiyyatı Orqanlarının III Beynəlxalq Forumunda birgə fəaliyyətin genişləndirilməsinə dair anlaşma əldə edilib

Bakıda Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin təşkilatçılığı ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Maliyyə Kəşfiyyatı Orqanlarının III Beynəlxalq Forumu keçirilib. "TDT ölkələrində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin anlaşılması: ortaq çağırışlar, birgə həllər" mövzusuna həsr olunan forum TDT məkanında maliyyə kəşfiyyatı orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsi, təcrübə mübadiləsinin təşviqi və maliyyə cinayətləri ilə mübarizə sahəsində vahid yanaşmaların formalaşdırılması məqsədini daşıyır.

Forumda Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Omuraliyev, eləcə də üzv ölkələrin maliyyə kəşfiyyatı orqanlarının rəhbərləri və digər yüksək səviyyəli qonaqlar iştirak edib. Tədbir çərçivəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Macarıstanın maliyyə kəşfiyyatı orqanları rəhbərlərinin iştirakı ilə əməkdaşlığın inkişaf perspektivləri, maliyyə cinayətləri ilə mübarizədə qarşıda duran çağırışlar və birgə fəaliyyət istiqamətləri barədə müzakirə aparılıb.

Qeyd edək ki, Maliyyə Kəşfiyyatı Orqanları rəhbərlərinin ilk görüşü ötən il Qırğız Respublikasında keçirilib və sıx əməkdaşlığın təməli qoyulub.

### Qarşılıqlı etimada və ortaq maraqlara əsaslanan əməkdaşlıq

Maliyyə kəşfiyyatı orqanlarının rəhbərləri təmsil etdikləri ölkələrin cinayət yolu ilə əldə edilən əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə təcrübəsi barədə çıxış ediblər. Azərbaycanın Maliyyə Monitorinqi Xidməti İdarə Heyətinin sədri Zaur Fətizadə Azərbaycanda maliyyə-bank sektorunun modernləşdirilməsi məqsədilə həyata keçirilən ardıcıl islahatlar, maliyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması və bank sisteminin sabitliyinin gücləndirilməsi sahəsində əldə olunan nəticələrə toxunub. Ölkəmizdə ədalətli bazar və sağlam maliyyə münasibətlərinin davamlı inkişafı, müasir tələblərə cavab verən maliyyə sisteminin formalaşmasından bəhs edib. Bildirib ki, əldə edilmiş anlaşmalar TDT ölkələri arasında məlumat və təcrübə mübadiləsinin genişləndirilməsi, birgə risklərin qiymətləndirilməsi və maliyyə cinayətləri ilə mübarizədə koordinasiyanın gücləndirilməsində mühüm rol oynayır.




Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Maliyyə Kəşfiyyatı Xidməti sədrinin müavini Bakıtbek Alişerov bildirib ki, TDT-nin Maliyyə Kəşfiyyatı Orqanları rəhbərlərinin görüşü ortaq problemlərin müzakirəsi, o cümlədən çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizəyə birgə yanaşmaların hazırlanması üçün vacib platforma rolunu oynayır. Onun sözlərinə görə, hazırkı şəraitdə heç bir ölkə bu cür təhdidlərlə təkbaşına effektiv şəkildə mübarizə apara bilməz. Məhz bu səbəbdən orqanlar arasında praktik əməkdaşlığın və etimadın gücləndirilməsi həm dövlətlərimizin təhlükəsizliyi, həm də bütün regionun davamlı inkişafı baxımından böyük əhəmiyyətə malikdir.

### Maliyyə cinayətlərinə qarşı birgə mübarizə

Digər çıxışlarda qeyd olunub ki, maliyyə cinayətlərinə qarşı mübarizədə türk dövlətləri arasında tərəfdaşlıq və yeni texnologiyaların tətbiqi, mübadiləsi önəm kəsb edir. Belə ki, qabaqcıl texnologiyalar və süni zəka əsasında hazırlanmış Şübhəli Əməliyyatların Monitorinqi Sistemi bu baxımdan rəqəmsal hədəflərə çatmaqda yeni alətlərdən biridir.

TDT ölkələri qlobal çağırışlar müstəvisində makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması, monetar siyasətin ötürücülüyünün təkmilləşdirilməsi, həmçinin rəqəmsal transformasiya dövründə maliyyə texnologiyalarının inkişafı istiqamətində fəal müzakirələr aparıb, bank sektorunun bu sahədəki fəaliyyətinə diqqət çəkib.  Bu prosesdə mərkəzi bankların rolunun artırılması və qarşılıqlı fəaliyyətinin gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

### Əməkdaşlıq platforması yeni təşəbbüsləri təşviq edir

TDT-yə üzv ölkələrin Maliyyə Kəşfiyyatı Orqanlarının III Beynəlxalq Forumu çərçivəsində əməkdaşlıq platformasının yaradılmasına dair memorandum imzalanıb. Platforma çərçivəsində müntəzəm görüşlərin keçirilməsi, əməkdaşlığın prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, birgə tədqiqat və analitik fəaliyyətin təşviqi, potensialın gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi, həmçinin zərurət yarandıqda tematik işçi qruplarının yaradılması nəzərdə tutulur.

Memoranduma əsasən, platformanın fəaliyyəti iştirakçı dövlətlərin milli qanunvericiliyinə və maliyyə imkanlarına uyğun şəkildə həyata keçiriləcək, rəsmi yazışmalar isə platformanın katibliyi və üzv qurumların təyin etdiyi əlaqələndirici şəxslər vasitəsilə aparılacaq. Sənəd, eyni zamanda, Türk Dövlətləri Təşkilatında müşahidəçi statusuna malik dövlətlərin Maliyyə Kəşfiyyatı Orqanlarının platformanın fəaliyyətində müşahidəçi qismində iştirak etməsinə, eləcə də müəyyən edilmiş prosedurlar əsasında gələcəkdə platformaya qoşulmasına imkan yaradır.



Əməkdaşlıq platformasının yaradılması "Türk dövlətlərinin Maliyyə Kəşfiyyatı Orqanlarının Beynəlxalq Forumu" çərçivəsində qəbul edilmiş "Şuşa Təşəbbüsü" və onun icrası məqsədilə təsdiq olunmuş "Türk dövlətlərinin Maliyyə Kəşfiyyatı Orqanlarının Effektiv Əməkdaşlığı üzrə İllik Yol Xəritəsi"nin mühüm nəticələrindən biri olub.

Yeni əməkdaşlıq mexanizminin yaradılması Türk Dövlətləri Təşkilatı məkanında maliyyə kəşfiyyatı sahəsində tərəfdaşlığın daha da möhkəmləndirilməsinə, maliyyə cinayətləri ilə mübarizədə birgə fəaliyyətin genişləndirilməsinə və beynəlxalq standartlara uyğun regional əməkdaşlığın inkişafına mühüm töhfə verəcək.

***NARDAR***

# Hərbi sahədə əməkdaşlıq uğurla inkişaf edir



Azərbaycan - Türkiyə münasibətləri dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Dünyada bir-birinə Azərbaycan və Türkiyə qədər yaxın olan hansısa digər dövlətlərin adını çəkmək mümkün deyil. İki qardaş ölkə tarixdən gələn və dil, din, mənəviyyat eyniliyinə söykənən ənənələrinə böyük önəm verir və bu yaxınlığı daim qoruyub saxlamağa, daha da möhkəmlətməyə çalışırlar.

**Zakir Həsənov Selçuk Bayraktarla görüşüb**

Azərbaycanla Türkiyənin müxtəlif istiqamətləri əhatə edən münasibətlərində hərbi sahədə əməkdaşlıq xüsusi yer tutur. Bu sahədə əməkdaşlıq müxtəlif sənədlərlə təsbit olunub. Eyni zamanda, iki ölkənin hərbi sahədə dövlət qurumlarının rəhbər şəxsləri mütəmadi olaraq qarşılıqlı səfərlər edirlər. Yeri gəlmişkən, Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin İdarə Heyətinin sədri Selçuk Bayraktarla rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Müdafiə Nazirliyindən verilən məlumata görə, görüşdə general-polkovnik Z.Həsənov iki qardaş ölkə arasında münasibətlərin bütün digər sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyini bildirib. "Baykar" şirkətinin Türkiyənin müdafiə sənayesindəki böyük rolu olduğunu diqqətə çatdıran nazir qabaqcıl texnoloji innovasiyaların tətbiqi ilə birgə istehsalat potensialının daha da artırılmasının əhəmiyyətini vurğulayıb.

Selçuk Bayraktar isə göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək qarşılıqlı səfərlərin Azərbaycan-Türkiyə hərbi və hərbi-texniki əməkdaşlığının möhkəmlənməsinə müsbət təsir göstərdiyini xüsusi qeyd edib. Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgünün də iştirak etdiyi görüşdə tərəflər pilotsuz uçuş aparatları, radioelektron mübarizə, insansız sistem vasitələri və digər sahələrə dair ətraflı fikir mübadiləsi aparıblar.

**Müdafiə sənayesi sahəsində yüksək əməkdaşlıq mövcuddur**

Ümumiyyətlə, iki ölkə arasında müdafiə sənayesi sahəsində yüksək səviyyəli əməkdaşlıq qurulub. Müdafiə sənayesi sahəsində əməkdaşlığın hüquqi təməldə həyata keçirilməsini təmin etmək məqsədilə indiyədək bir sıra sənədlər imzalanıb. Türkiyə hərbi texnika istehsalında böyük uğurlara imza atıb. Eyni zamanda, Azərbaycan da özünün müdafiə sənayesini inkişaf etdirir. Artıq ordumuzun müxtəlif döyüş sursatları ilə təminatının xeyli hissəsi məhz daxili istehsal hesabına həyata keçirilir. Qardaş ölkə ilə birgə müdafiə sənayesi müəssisələrinin qurulması da müsbət nəticələr verir.

Azərbaycan və Türkiyə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq strateji müttəfiqlik səviyyəsində - Şuşa Bəyannaməsinin müddəalarına uyğun olaraq yüksək templə inkişaf edir. Bu tərəfdaşlıq hərbi-texniki potensialın gücləndirilməsinə və birgə istehsal imkanlarının genişləndirilməsinə xidmət edir. Münasibətlərin hüquqi və siyasi əsası 2021-ci ildə imzalanmış və hərbi-müdafiə sahəsində birgə fəaliyyəti tənzimləyən Şuşa Bəyannaməsi ilə müəyyən edilib. Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi və Türkiyənin qabaqcıl şirkətləri, xüsusilə "Baykar" şirkəti arasında birgə layihələr həyata keçirilir. Pilotsuz uçuş aparatları (PUA), radioelektron mübarizə vasitələri və insansız sistemlərin tətbiqi əsas müzakirə və inkişaf mövzularındandır. Tərəflər hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək üçün yüksək səviyyəli səfərlər və görüşlər həyata keçirir. Bu əlaqələr regionda təhlükəsizliyin və iki qardaş ölkənin hərbi qüdrətinin artırılmasında əsas rol oynayır. Ölkəmizdə "Bayraktar Teknoloji Azərbaycan" MMC pilotsuz uçuş aparatlarının (PUA) istehsal etməsi də əməkdaşlığın bariz göstəricisidir. Müəssisə istehsalı İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Sənaye Parkında həyata keçirir. "Bayraktar Teknoloji Azərbaycan"a Sumqayıt Sənaye Parkının rezidenti statusu ötən ilin may ayında verilib. "Bayraktar" PUA-sı İkinci Qarabağ müharibəsində ordumuzun qələbə qazanmasında vacib rol oynayan hərbi texnika olduğunu sübut edib.

Hazırda dünyada elə bir vəziyyət yaranıb ki, beynəlxalq hüquq və prinsiplər bir çox hallarda işləmir. Buna görə də ölkələr öz suverenliyini daxili gücü və müttəfiqlərinin dəstəyi ilə qorumaq məcburiyyətindədirlər. Azərbaycan və Türkiyənin hərbi əməkdaşlığı isə həm bu ölkələrin özləri, həm də bütövlükdə region üçün mühüm aktuallıq daşıyır. Hər iki ölkə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında maraqlıdır.

Azərbaycanla Türkiyənin hərbi sahədə əməkdaşlığının məzmunu kifayət qədər genişdir. İlk növbədə onu qeyd edək ki, NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə öz dəstəyini göstərir. Hazırda Türkiyə modelinə istinad edilməklə Azərbaycan Ordusunun yeni strukturu formalaşdırılıb, o cümlədən də komando birlikləri yaradılıb. Ölkəmizin Türkiyə ilə hərbi təhsil sahəsində əməkdaşlığının önəmini xüsusi qeyd edə bilərik. 1996-cı ildə imzalanmış "Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq razılaşması" çərçivəsində Türkiyə ilə Azərbaycan hərbi təhsil sahəsində yaxşı nəticələr qazanıblar. İndiyədək minlərlə azərbaycanlı gənc qardaş ölkənin Silahlı Qüvvələrində təcrübə keçiblər, bir sıra nadir ixtisaslara yiyələniblər və müxtəlif növ müasir silahların sirlərini öyrəniblər. Silahlı Qüvvələrimizin yenidən təşkilinə kömək məqsədilə hər il müəyyən kvotalar daxilində azərbaycanlı hərbi qulluqçular Türkiyədə təhsil almağa göndərilir. Təcrübə mübadiləsi baxımından Azərbaycandan və Türkiyədən olan hərbçilərin birgə təlimlərə cəlb olunmaları da çox əhəmiyyətlidir.

**Şuşa Bəyannaməsində hərbi əməkdaşlıq xüsusi yer tutur**

Hərbi əməkdaşlıq sahəsində uzun illər ərzində qazanılan təcrübə, eləcə də 2002-ci il mayın 14-də imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə" iki qardaş ölkəni 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanmasına apardı. Yəni, Şuşa Bəyannaməsi əslində, sözügedən sənədin məntiqi davamı hesab oluna bilər. Qars Müqaviləsindən 100 il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvəyə yüksəlib. Sənəddə iki ölkənin bundan sonrakı müttəfiqliyinin və işbirliyinin mühüm istiqamətləri öz əksini tapıb. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı,



dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından da mühüm əhəmiyyət kəsb edir.

***Nardar BAYRAMLI***

# Ernəzir kəndi: Tarixi yaddaş, milli kimlik və gələcəyə olan ümid

Ernəzir kəndi Zəngəzur mahalının Mığrı (Meğri) bölgəsində yerləşmiş qədim Azərbaycan yaşayış məntəqələrindən biri olmuşdur və bu kəndin tarixi bütövlükdə Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların taleyinin ayrılmaz hissəsini təşkil edir. Bu yaşayış məntəqəsi yalnız coğrafi baxımdan deyil, həm də tarixi, demoqrafik və mədəni xüsusiyyətlərinə görə mühüm əhəmiyyət kəsb etmişdir. Ernəzir kəndinin keçdiyi tarixi yol, burada yaşamış əhalinin həyat tərzi, tayfa quruluşu, məişəti və XX əsrdə baş verən hadisələrin təsiri bu gün də milli yaddaşın mühüm komponentlərindən biri qismində çıxış edir.

Kənd Zəngəzur silsiləsinin cənub-qərb hissəsində, Mığrı (Meğri) rayonunun dağlıq ərazisində yerləşmişdir. Ərazi mürəkkəb relyefə malik olmaqla yanaşı, təbii sərvətlərlə zəngin olmuş, burada meşələr, bulaqlar və dağ çayları geniş yayılmışdır. Bu təbii şərait kənd təsərrüfatının inkişafı üçün əlverişli imkanlar yaradırdı. Ernəzir kəndinin əhalisi əsasən əkinçilik, heyvandarlıq və bağçılıqla məşğul olmuş, bu da onların oturaq həyat tərzini formalaşdırmışdır. Xüsusilə meyvəçilik və üzümçülük kənd iqtisadiyyatında mühüm yer tutmuşdur.

Tarixi baxımdan Ernəzir kəndi Zəngəzur mahalının digər yaşayış məntəqələri kimi qədim dövrlərdən formalaşmış və uzun müddət azərbaycanlıların kompakt şəkildə yaşadığı kəndlərdən biri olmuşdur. Bölgə müxtəlif dövrlərdə Azərbaycan dövlətlərinin tərkibində olmuş, xüsusilə Səfəvilər dövründə inzibati və iqtisadi baxımdan inkişaf etmişdir. XIX əsrdə Rusiya imperiyasının bölgəni işğal etməsindən sonra burada inzibati dəyişikliklər aparılmış və regionun etnik tərkibinə təsir edən köçürmə siyasəti həyata keçirilmişdir ki, bu proses Ernəzir kəndinin də demoqrafik vəziyyətinə təsirsiz ötüşməmişdir.

Ernəzir kəndi üzrə konkret statistik məlumatlar məhdud olsa da, mövcud tarixi paralellər əsasında demoqrafik vəziyyətin ümumi mənzərəsini müəyyən etmək mümkündür. XIX əsrin ortalarında kənddə təxminən 40-60 ailənin, yəni 200-300 nəfərin yaşadığı ehtimal edilir. 1897-ci il siyahıyaalınması dövründə əhalinin sayının 300 nəfərə yaxın olduğu, XX əsrin əvvəllərində isə bu rəqəmin 350-400 nəfərə çatdığı güman olunur. Bu artım əsasən təbii çoxalma və kənd təsərrüfatının inkişafı ilə bağlı olmuşdur. Lakin 1918-ci ildə baş verən hadisələr kəndin demoqrafik inkişafını kəskin şəkildə dəyişdirmişdir.

Ernəzir kəndinin əhalisi müxtəlif türk tayfalarına mənsub nəsillərdən ibarət olmuşdur. Bu tayfalar kəndin sosial strukturunun əsasını təşkil edirdi. Əhalinin tərkibində əsasən tərəkəmə (qarapapaq) tayfaları üstünlük təşkil etmiş, onlar yarımköçəri və köçəri həyat tərzi ilə seçilmişlər. Bununla yanaşı, bölgədə geniş yayılmış Kəngərli tayfasına mənsub ailələr və uzun müddət kənddə məskunlaşmış yerli oturaq nəsillər də mövcud olmuşdur. Kəndin sosial həyatı patriarxal ailə sistemi, güclü



qohumluq əlaqələri və ağsaqqal institutunun nüfuzu üzərində qurulmuşdur ki, bu da icma daxilində sabitliyi təmin edən əsas amillərdən biri idi.

XX əsrin əvvəllərində, xüsusilə 1918-ci ildə Zəngəzur bölgəsində baş verən silahlı qarşıdurmalar Ernəzir kəndinin tarixində həlledici dönüş nöqtəsi olmuşdur. Həmin dövrdə kənd hücumlara məruz qalmış, yaşayış evləri dağıdılmış, əhali qətlə yetirilmiş və ya öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdur. Bu hadisələr nəticəsində kənd faktiki olaraq tərk edilmiş və onun demoqrafik və sosial strukturu tamamilə dağılmışdır. Sonrakı dövrlərdə Ernəzir kəndi əvvəlki yaşayış statusunu bərpa edə bilməmiş, yalnız toponim və tarixi yaddaş kimi mövcudluğunu qoruyub saxlamışdır.

Elmi baxımdan mühüm məqamlardan biri də ondan ibarətdir ki, Ernəzir kəndi 1918-ci ildən sonra əvvəlki funksional yaşayış məntəqəsi kimi bərpa olunmadığı üçün 1988-ci ildə Ermənistan ərazisində yaşayan azərbaycanlıların deportasiyası birbaşa bu kəndə aid edilmir. Lakin 1988-ci ildə Mığrı (Meğri) rayonunda yaşayan bütün azərbaycanlıların deportasiya olunması Ernəzir kəndindən olan nəsillərin də doğma torpaqlarla əlaqəsinin tam şəkildə kəsilməsi ilə nəticələnmişdir. Bu baxımdan, həmin hadisələr kəndin tarixi yaddaşı və onun sakinlərinin taleyi ilə dolayı şəkildə bağlıdır.

Ernəzir kəndinin taleyi Qərbi Azərbaycan məsələsinin ümumi kontekstində xüsusi əhəmiyyət kəsb edir. Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixinin və milli yaddaşının qorunmasına böyük önəm verərək Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlıların hüquqlarının müdafiəsini dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyən etmişdir. Onun yanaşmasına görə, tarixi yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi milli kimliyin əsas şərtlərindən biridir. Bu siyasət nəticəsində Qərbi Azərbaycan məsələsi dövlət səviyyəsində daim diqqət mərkəzində saxlanılmışdır.

Sonrakı mərhələdə bu siyasi kurs Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilmiş və yeni mərhələyə çıxarılmışdır. Dövlətimizin başçısının çıxışlarında Qərbi Azərbaycana qayıdış ideyası beynəlxalq hüquq, insan hüquqları və tarixi ədalət prinsiplərinə istinad edilməklə əsaslandırılır. Prezident İlham Əliyev vurğulayır ki, Qərbi Azərbaycandan olan azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququ mövcuddur və bu hüquq beynəlxalq normalar çərçivəsində tanınmalıdır. Bu yanaşma məsələyə yalnız tarixi deyil, həm də hüquqi və siyasi məzmun qazandırır.

Bu kontekstdə Ernəzir kəndi artıq yalnız keçmişin bir hissəsi deyil, həm də Qərbi Azərbaycana qayıdış ideyasının simvolik ifadələrindən biri kimi çıxış edir. Bu kənd itirilmiş yurdların, pozulmuş demoqrafik tarazlığın və tarixi ədalətsizliyin rəmzi olmaqla yanaşı, eyni zamanda milli yaddaşın, kimliyin və gələcəyə yönəlmiş ümidin daşıyıcısıdır.

Nəticə etibarilə, Ernəzir kəndinin tarixi Zəngəzur bölgəsində baş vermiş mürəkkəb siyasi və demoqrafik proseslərin bariz nümunəsidir. Kəndin əhali dinamikası, tayfa strukturu və 1918-ci il hadisələri onun inkişaf trayektoriyasını müəyyən etmiş, sonrakı dövrlərdə isə yalnız tarixi yaddaş səviyyəsində yaşamasına səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin siyasi ideyaları bu tarixin unudulmamasına, tarixi ədalətin bərpasına və gələcəkdə Qərbi Azərbaycana qayıdış ideyasının reallaşmasına xidmət edir. Bu baxımdan Ernəzir kəndini Azərbaycan tarixində yalnız keçmişin deyil, həm də gələcəyə yönəlmiş milli ideyanın mühüm simvollarından biri kimi dəyərləndirmək mümkündür.

***Əhmədov Nəzər Həbulla oğlu,***
***Zairov Bərəhman Səfiyar oğlu***

# Provayderlərin məsuliyyəti artırılır

Gələcəyimiz sandığımız uşaqların psixologiyası tam formalaşmadığına görə, onların zərərli təsirlərdən qorunması son dərəcə vacibdir. Bu təsirlər müxtəlif yollarla ötürülə bilər. Bunların sırasında isə hazırda bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da populyarlığı kifayət qədər yüksək olan sosial şəbəkələr xüsusi yer tutur.

Sosial şəbəkələrdə cəlbedici tərtibatlar altında uşaqlara onların yaş həddinə, dünyagörüşünə uyğun olmayan zərərli məzmunlar ötürülməsi riskləri kifayət qədər böyükdür. Buna görə də uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsi qaçılmaz zərurət qismində çıxış edir. Bu günlərdə Milli Məclisdə qəbul edilən müvafiq qanun layihəsi də məhz bu



məqsədi daşıyır.

**Reallıqdan yaranan zərurət**

Özlüyündə İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ölkə ərazisində internetdən istifadənin məhdudlaşdırılması anlamında qəbul edilməməlidir. Ölkəmizdə internetə çıxış imkanlarının artırılması üçün infrastruktur getdikcə daha da müasirləşdirilir və onun əhatə dairəsi bütün ölkə üzrə genişləndirilir. 2026-cı ildə dərc edilən son ölkə hesabatına əsasən, Azərbaycanda internet istifadəçilərinin sayı 9 milyon 270 min nəfərə, yəni ölkə əhalisinin təxminən 89 faizinə çatıb. Azərbaycanda 7 milyon 610 min sosial media istifadəçi identifikatoru qeydə alınıb. Başqa sözlə, təkrar və xaricdən qoşulma amilini nəzərə aldıqda, ölkəmizin hər on sakinindən səkkizi rəqəmsal məkandadır. Onlar internet vasitəsilə bank əməliyyatları aparır, dövlət xidmətləri alır, vergilərini ödəyir, tibbi məlumatlarını əldə edir, təhsil alır və şəxsi ünsiyyət qururlar.

Eləcə də müvafiq qanun layihəsinin təsdiqlənməsi ilə ölkədə uşaq hüquqlarının guya hansısa bir formada pozulması ilə bağlı müəyyən qüvvələrin dövriyyəyə buraxdıqları şayiələrin də heç bir əsası yoxdur. Əksinə, yeni qanun layihəsində bilavasitə uşaqların mənafeyi nəzərə alınıb. İndiki dövrdə internet, o cümlədən də sosial şəbəkələr üzərindən kibercinayətkarlığın nə qədər geniş vüsət aldığı hər kəsə bəllidir. Təhlükələrin miqyası o qədər böyükdür ki, onlayn platformalar hətta siyasi, iqtisadi, hərbi təsir alətlərinə çevrilib. Daha hansısa bir dövlətə ağır zərbə vurmaq üçün həmişə onun ərazisinə qoşun yeritmək tələb olunmur. Bəzən zərərli bir kod ölkənin enerji, bank, rabitə, nəqliyyat sistemlərinə, xəstəxanalarına və idarəetmə strukturlarına ənənəvi silahdan az olmayan zərər vura bilər.

Uşaqlarla vəziyyət isə daha ciddidir. Sosial şəbəkələr hüdudsuz bir məkandır və burada uşaqlar ən müxtəlif kontentlərlə qarşılaşa bilərlər. Sosial şəbəkələr üzərindən uşaqlara zərərli təsirlərin ötürülməsindən bəhs etdikdə xüsusilə də zorakılıq, aqressiya, nifrət nitqi, saxta məlumatlar, yaşa uyğun olmayan reklamlar və vizual materiallar nəzərdə tutulur. Uşaqlar sosial şəbəkələrdə, həmçinin kibertəhlükəsizlik, ailə sirlərinin ötürülməsi, təhqir, mənəvi zorakılıq, pis vərdişlərə çağırışlar və digər belə hallarla üz-üzə qalırlar. Dünyagörüşləri tam formalaşmayan uşaqlar bu təzyiqlərin gerçək məzmununu anlamaqda və düzgün qərar çıxarmaqda acizdirlər. Onlar uzun müddət əl telefonlarından, kompüterlərdən aldıqları təsirlərdən yaxa qurtara bilmirlər və beləliklə də psixoloji sıxıntılara məruz qalırlar. Bir çox hallarda sosial şəbəkələr uşaqlarda asılılıq sindromu yaradır və onlar özlərinə qapanırlar. Belə uşaqlar üçün real həyatda sosiallaşma çətinləşir, onlar düşdükləri yeni mühitdə ünsiyyət qura bilmirlər. Uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə keçid edilməsi də bu kimi reallıqlardan yaranan bir zərurətdir.

**Beynəlxalq təcrübəyə əsaslanmaqla atılan addım**

Milli Məclisdə aparılan müzakirələrdə də vurğulandığı kimi, yeni qanun layihəsi hazırlanarkən beynəlxalq təcrübəyə istinad olunub. Dünya ölkələrində uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə fərqli yanaşmalar sərgilənir. Getdikcə daha çox ölkədə uşaqların sosial platformalardan istifadəsinə qanunla məhdudiyyətlər qoyulur. 2025-ci ilin dekabrında Avstraliyada müvafiq qanun qəbul edilib. Fransa 2026-cı ilin yanvar-mart aylarında uşaqların sosial şəbəkələrdə olmasına yaş məhdudiyyəti tətbiq edən dünyada ikinci, Avropada birinci dövlət olub. Hazırda müxtəlif ölkələrdə müxtəlif yaşdan belə tənzimləmələrin tətbiqi imkanlarına baxılır. Danimarka 18, İspaniyada 16, Fransada 15, ABŞ-da federal səviyyədə 17, ştatlarda isə Kaliforniya, Texas, Nyu-York, Tennessi və Yutada 18, Kolorado, Corciya, Luizianada 16, Floridada 14 yaş məhdudiyyətləri, eləcə də İrlandiyada OnlineSafety-Code və Böyük Britaniyada Online-Safety Act kimi yanaşmalar mövcuddur. Almaniya, Portuqaliya, Norveç, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan sosial şəbəkə platformalarında yaş məhdudiyyətləri müəyyənləşdirmək üçün qanunvericilik qərarları qəbul edib və ya etməkdədir. Qonşularımız olan Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüsləri mövcuddur. Norveç 2026-cı ilin sonuna qədər sosial media platformaları üçün yaş məhdudiyyətləri tətbiq etməyi planlaşdırır.

Azərbaycanda müvafiq qanun layihəsində sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların açılması üçün minimum rəqəmsal yetkinlik yaş həddi 16 yaş müəyyən olunub. Layihədə 16-18 yaş qrupunun platformalarda fərdi rəqəmsal hesab yaratması, ondan istifadə etməsi və kontent paylaşması yalnız qanuni nümayəndənin razılığı və nəzarəti altında mümkün olacağı nəzərdə tutulur.

**Provayderlərin qarşısında hansı tələblər qoyulur?**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna edilən dəyişikliyə əsasən provayderlərin məsuliyyəti artırılır və onların qarşısına bir sıra tələblər qoyulur. O cümlədən provayder istifadəçi yaşı-




nın yoxlanılması məqsədilə topladığı fərdi məlumatlarla bağlı aşağıdakı fəaliyyətləri həyata keçirə bilməz:

- onları öz informasiya sistemində saxlamaq və ya üçüncü şəxslərə ötürmək;

- onlardan yaşın yoxlanılması istisna olmaqla, kommersiya, hədəfli reklam (konkret istifadəçiyə yönələn) və ya digər məqsədlər üçün istifadə etmək.

Provayder bu qanunda qeyd olunan yoxlama prosesi başa çatdıqda dərhal toplanılmış fərdi məlumatların silinməsini təmin etməlidir.

Provayder fərdi rəqəmsal hesabı olan şəxsin yetkinlik yaşına çatanadək yerləşdirdiyi məlumatların, paylaşdığı məzmunun və fərdi məlumatlarının özünün, yetkinlik yaşına çatmadığı halda qanuni nümayəndəsinin və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında, həmçinin daxili qaydalarında müəyyən edilmiş hallarda öz təşəbbüsü ilə silinməsini təmin etməlidir.

16-18 yaş arası uşaqların həyatına, sağlamlığına, cinsi toxunulmazlığına, şərəfinə, ləyaqətinə və qanunla qorunan digər hüquq və azadlıqlarına təhlükə yaradan zərərli məzmunların yayılmasının qarşısının alınması üçün provayder platformada fasiləsiz rejimdə fəaliyyət göstərən və operativ müdaxiləni təmin edən rəqəmsal həlləri tətbiq etməlidir. Belə halların qarşısının alınması üzrə provayderin texniki müdaxilə müddəti zərərli məzmunun aşkar edildiyi andan etibarən 24 saatdan artıq olmamalıdır.

Provayderlər bu qanun qüvvəyə minənədək yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında (və həmin platformalarda yaradılan fərdi rəqəmsal hesablarda) yaş həddinin müəyyən edilməsi ilə bağlı rəqəmsal həllərin tətbiqi üçün texniki imkanları təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

Provayderlər bu qanun qüvvəyə mindikdən sonra 16 yaşdan aşağı uşaqlara məxsus mövcud fərdi rəqəmsal hesablara girişin məhdudlaşdırılmasını, şəxsin 16 yaşının tamam olmasını təsdiq edən məlumat təqdim edilmədikdə həmin hesabların və fərdi məlumatlarının silinməsini təmin etməli və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidirlər.

***Mübariz FEYİZLİ***



## Milli Məclisin iclasında...

# Millət vəkilləri 22 məsələni müzakirə ediblər

İyulun 7-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. İclasın gündəliyinə 22 məsələ daxil edilib.

Əvvəlcə "Gəmilərin ballast sularının və çöküntülərinin idarə edilməsi və nəzarətinə dair" Beynəlxalq Konvensiyaya qoşulmaq haqqında qanun layihəsi qəbul edilib. Beynəlxalq Konvensiya 2004-cü il fevralın 13-də London şəhərində imzalanıb.

Sonra "Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilənin təsdiq edilməsi barədə" qanun layihəsi qəbul olunub. Qanun layihəsinə əsasən, 2026-cı il aprelin 25-də Qəbələ şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə" təsdiq edilir. Müqavilə iki ölkə arasında mülki və ticarət işləri üzrə hüquqi yardımın göstərilməsi, məhkəmə və digər səlahiyyətli orqanlar arasında əməkdaşlığın hüquqi əsaslarının müəyyənləşdirilməsini nəzərdə tutur.

İclasda Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişikliklər üçüncü oxunuşda qəbul olunub. Qanun layihəsinə əsasən, iqtisadi fəaliyyət sahəsində olan bəzi cinayətləri (qanunsuz sahibkarlıq, yalançı sahibkarlıq, rəqabəti məhdudlaşdırma və s.) törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxslər, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) artıq bir misli yox, əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad ediləcəklər.

Həmçinin layihəyə əsasən, artıq qanunsuz olaraq kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədilə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan hüquqi şəxs yaratmadan fiziki şəxs kimi vergi uçotuna alınması, habelə qeyd edilən məqsədlə hüquqi şəxsin və ya vergi uçotuna alınmış fiziki şəxsin fəaliyyətinin faktiki idarə edilməsi də yalançı sahibkarlıq (Cinayət Məcəlləsinin 193-cü maddəsi) hesab ediləcək.

Qanun layihəsində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda da dəyişiklik edilməsi nəzərdə tutulur. Dəyişikliyə əsasən, Qanunun 13-2.3.5-13-2.3.9-cu və 13-2.3.10-1-ci maddələrində göstərilən informasiyaların yerləşdirilməsi hallarında internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciət müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında müvəqqəti olaraq məhdudlaşdırılacaq.

Deputatlar Vergi Məcəlləsinə təklif edilən dəyişiklikləri də ikinci oxunuşda qəbul ediblər. Qanun layihəsi neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektor təmsilçilərinə ƏDV-nin depozit hesabından Dövlət Sosial Müdafiə Fonduna vəsait köçürmək imkanının yaradılması məqsədilə hazırlanıb. Layihəyə əsasən, 2027-ci il yanvarın 1-dən 4 il müddətinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyiciləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və şərtlərlə ƏDV-nin depozit hesabından Dövlət Sosial Müdafiə Fonduna vəsait köçürülə bilər.

Gömrük Məcəlləsinə də bir sıra dəyişikliklər təklif edilir. Layihəyə əsasən, Azərbaycan ərazisinə idxal edilən qeyri-qida istehlak mallarına tətbiq edilən rejimin yerli və ya digər ölkə mənşəli oxşar mallara tətbiq edilən rejimlə eyniliyi təmin edilməklə rəqabət mühiti qorunacaq, yerli istehsal dəstəklənəcək, idxalda texniki reqlamentlərə, yəni insanların həyat və ya sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsinə yönəldilmiş məcburi tələblərə cavab verməyən malların ölkəyə daxil olmasının qarşısı alınacaq.

Ölkədə sahibkarlığın inkişafına və biznes mühitinin dəstəklənməsinə yönəldilmiş dövlət siyasəti prioritetləri nəzərə alınmaqla, qeyri-qida istehlak mallarının idxalı ilə məşğul olan təsərrüfat subyektlərinə fəaliyyətlərini yeni qanunvericiliyin tələblərinə uyğunlaşdırılması məqsədilə layihədə 24 ay keçid dövrü nəzərdə tutulub. Sənəd müzakirələrdən sonra ikinci oxunuşda qəbul olunub.

Milli Məclis "Toxumçuluq haqqında" qanun layihəsini də birinci oxunuşda qəbul edib. Müzakirələr zamanı qeyd edilib ki, ölkəmizdə dayanıqlı olmayan kənd təsərrüfatı üsullarının tətbiqi nəticəsində resurs ehtiyatlarının sıradan çıxması, habelə qlobal iqlim dəyişikliklərinin mənfi təsirləri fonunda artan əhalinin ərzaqla təmin edilməsi mühüm vəzifə kimi qarşıda durur. Ərzaq təhlükəsizliyinin təmin edilməsində bitkiçilik məhsullarının istehsalı xüsusi yer tutur ki, bunun üçün də fermerlərin keyfiyyətli toxumla təminatı həlledici əhəmiyyət daşıyır.

Layihədə nəzərdə tutulan yeniliklərdən biri də məhz elektronlaşma ilə bağlıdır. Belə ki, toxumçuluq sahəsində fəaliyyət göstərən subyektlərin (toxum əməliyyatçılarının) qeydiyyatının elektron şəkildə aparılması prosesin operativliyinin təmin edilməsi baxımından mühüm amildir. Elektronlaşma nəticəsində aidiyyəti şəxslərin sortluq və səpin keyfiyyətini təsdiq edən sertifikatı olan toxumlar, habelə onların bioloji və iqtisadi göstəriciləri barədə ətraflı məlumat almalarına şərait yaradacaq.

Qeyd edək ki, deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini qəbul ediblər.

***Nardar BAYRAMLI***

# Qlobal ərzaq böhranı - Aİ çıxış yolu axtarır

Hazırda dünyanın mənzərəsi bir sıra kədərli reallıqlarla səciyyələnir. Uzanan Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə gərginliyin artması, dünya üçün əsas su yollarından biri olan Hörmüz boğazının siyasi manipulyasiya alətinə çevrilməsi öz arxasınca fəsadlara yol açır və beynəlxalq birliyi ağır sınağa çəkir. O cümlədən müharibələr və iqlim dəyişmələri səbəbindən istehsal həcmlərinin azalması, tədarükdə yaranan çətinliklər dünya əhalisinin ərzaq məhsullarına olan tələbatının tam şəkildə ödənilməsi imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırırb.

## FAO həyəcan təbili çalır - bazarlar boşalır, qiymətlər artır

Yeni növ koronavirus pandemiyasından sonra dünya daha bir ərzaq böhranı ilə üz-üzə qalıb. Geosiyasi gərginliklər davam etdikcə bazarlar boşalır, qiyməylər və inflyasiya artır. Vəziyyət kritik dərəcədə ağır qiymətləndirilir. Mütəxəssislərin qənaətinə görə, ərzaq bazarında tələbatın qarşılanmasında yaranan çətinliklər hamsı bir yerdə eyni vaxtda təsir göstərə bilən müxtəlif amillərdən qaynaqlanır. Bu sırada

- İqlim dəyişiklikləri,
- Ticarət qadağaları,
- İran, ABŞ, İsrail müharibəsi fonunda Hörmüz boğazı ətrafında yaranan vəziyyət,
- Rusiya-Ukrayna müharibəsi səbəbindən Şimal marşrutlarının risk altına düşməsi,
- Qara dəniz limanlarından daşımaların məhdudlaşması,
- El-Ninyo fenomeni və s. səbəblər yer alır.




İqlim dəyişikliyi nəticəsində temperaturun artması kənd təsərrüfatına ciddi zərbə vurur. BMT-nin məlumatına görə, qlobal temperaturun 1,4°C yüksəlməsi aqrar sektorun məhsuldarlığını 21 faiz azaldıb. İstiləşmə eyni zamanda dəniz ekosistemlərinə zərər vurur, balıq ehtiyatlarının azaldır və zərərvericilərin çoxalmasına səbəb olur. Bu isə quraqlıq, torpaq deqradasiyası və meşə yanğınlarının artmasına gətirib çıxarır.

Digər tərəfdən, ölkələr arasında ticarət müharibəsi kənd təsərrüfatı xərclərini artırıb və fermerlərin xarici bazarlara çıxışını məhdudlaşdırıb. İranla gərginlik isə yanacaq və gübrə qiymətlərinin yüksəlməsinə səbəb olub. Bu problemləri El-Ninyo fenomeninin daha da gücləndirə biləcəyi vurğulanır. Gözlənilən temperatur rekordları isə xüsusilə Hindistan, Afrika və digər sıx məskunlaşmış regionlarda vəziyyəti daha da kəskinləşdirə bilər. Xəbərdarlıq edilir ki, əgər mövcud böhran vəziyyəti 90 gün ərzində davam edərsə, 2026-cı ilin sonlarında və 2027-ci ildə qlobal miqyasda kəskin ərzaq çatışmazlığı təhlükəsi qaçılmaz olacaq. İlin əvvəlindən bəri ayrı-ayrı pozisiyalar üzrə qiymətlərdə ardıcıl artımlar müşahidə edilir. FAO-nun hesabatında bildirilir ki, fevral ayında qlobal ərzaq qiymətləri indeksi yanvarla müqayisədə 0,9 faiz artıb. Bu, xüsusilə də dənli bitkilərin, ətin və bitki yağlarının qiymətlərinin artması ilə əlaqədardır. Belə ki, fevral ayında taxılın qiymət indeksi 1,1 faiz, o cümlədən buğda qiymətləri 1,8 faiz artıb. Qarğıdalı qiymətləri və düyü qiymət indeksində də artım müşahidə olunub. Bitki yağı qiymət indeksi aylıq müqayisədə 3,3 faiz, illik əsasda isə 11,7 faiz artıb. Ət qiymətləri indeksi aylıq 0,8 faiz, illik müqayisədə 8 faiz artıb.

Qimət indekslərində artım dendensiyası sonrakı aylarda da davam edib. FAO-nun Ərzaq Qiymətləri İndeksi aprel ayında orta hesabla 130,7 bənd təşkil edib. Bu göstərici mart ayı ilə müqayisədə 1,6 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə isə 2 faiz yüksək olub. Bitki yağlarının qiymətlərinin artım tendensiyası aprel ayında da yüksək olub. Belə ki, bu göstərici 5,9 faiz artaraq 2022-ci ilin iyulundan bəri ən yüksək səviyyəyə çatıb. FAO bildirir ki, xam neft qiymətlərinin yüksəlməsi bioyanacaq istehsalına marağı artırıb və bu da palma, soya, günəbaxan və kolza yağlarının bazarında qiymət artımına səbəb olub. Eyni zamanda, ət qiymətləri də aprel ayında rekord həddə yüksəlib. Bu artım əsasən mal əti və donuz əti qiymətlərinin bahalaşması ilə əlaqələndirilir.

Təəssüf ki, perspektivlə bağlı proqnozlar da nikbin deyil. Müharibələr uzandıqca enerji daşıyıcılarının qiymətlərinin daha da artması gözlənilir. Bu isə bilavasitə ərzaq qiymətlərində öz əksini tapacaq.

Rusiya-Ukrayna müharibəsindən və Yaxın Şərqdəki gərginlikdən ən çox təsirlənən coğrafiyalardan biri Avropa İttifaqı (Aİ) məkanıdır. Ciddi enerji təhlükəsizliyi problemi ilə üz-üzə qalan "qoca qitə" bunun yan təsirini həmçinin ərzaq bazarında, artan qiymətlərdə, inflyasiyanın yüksəlməsində görür. Buna görə də Avropa İttifaqı artıq real olan və gözlənilən risklərdən sığortalanmağın yollarını axtarır. Qurum heyvandarlıq sektorunu iqlim dəyişikliyi, heyvan xəstəlikləri və artan istehsal xərclərinə qarşı daha dayanıqlı etmək məqsədilə ilk genişmiqyaslı strategiya hazırlayıb.

Aİ Komissiyası heyvandarlıq sektorunun uzunmüddətli perspektivdə güclü və davamlı inkişafını təmin etmək məqsədilə hazırladığı "Heyvandarlıq Strategiyası" və "Protein üzrə Fəaliyyət Planı"nı ictimaiyyətə təqdim edib.

Strategiyaya əsasən, Aİ-də heyvandarlıqla məşğul olan təsərrüfatların iqtisadi, ekoloji və bazar risklərindən irəli gələn çətinliklərin aradan qaldırılmasına dəstək veriləcək. Heyvandarlıq sektorunun böhranlara qarşı dayanıqlığı artırılacaq, rəqabət qabiliyyəti gücləndiriləcək, davamlı inkişaf təşviq olunacaq, kənd ərazilərində istehsalın qorunması təmin ediləcək və Avropa istehsalında keyfiyyət standartları yüksəldiləcək. Bu məqsədlə risklərin idarəolunması mexanizmləri təkmilləşdiriləcək, yeni və təkrar sığorta sisteminin tətbiqi nəzərdən keçiriləcək. Bununla yanaşı, üzv dövlətlərə heyvan xəstəliklərinin təsirlərinin idarəolunması istiqamətində dəstək göstəriləcək, xəstəliklərin qarşısının alınması, erkən aşkarlanması və operativ müdaxilə imkanları genişləndiriləcək.

Aİ Komissiyası sektorun gəlirliliyinin artırılması, innovativ texnologiyaların tətbiqinin sürətləndirilməsi, rəqabət qabiliyyətinin və dayanıqlığın gücləndirilməsi istiqamətində də fəaliyyət göstərəcək.

## Aİ-nin yeni strategiyası özünü doğruldacaqmı?

Eyni zamanda, maliyyə resurslarına çıxışın asanlaşdırılması, qəfəssiz heyvandarlıq sistemlərinə keçidin dəstəklənməsi, dairəvi iqtisadiyyat prinsiplərinin geniş tətbiqi və fermerlərin gəlirlərinin qorunması üçün tədbirlər həyata keçiriləcək. Avropanın müxtəlif regionlarında tətbiq olunan heyvandarlıq modelləri nəzərə alınmaqla davamlı inkişaf problemlərinin həlli üçün regional yanaşmalar hazırlanacaq. Heyvanların rifahı ilə bağlı qaydalar elmi əsaslar üzrə yenidən nəzərdən keçiriləcək. Yeni tələblərin tətbiqi üçün kifayət qədər keçid sitəsilə dəstəklənəcək.

Strategiya ilə birlikdə qəbul edilən "Protein üzrə Fəaliyyət Planı" Avropanın idxal olunan protein yemlərindən asılılığını azaltmağı hədəfləyir.

Aİ Komissiyasının məlumatına görə, 2025-ci ildə Aİ-də heyvan yemində istifadə olunan yağlı toxumların və protein bitkilərinin cəmi 25 faizi birlik daxilində istehsal olunub. Yeni plana əsasən, 2035-ci ilədək bu göstəricinin 35 faizə çatdırılması nəzərdə tutulur. Bunun üçün yerli protein bitkilərinin istehsalı dəstəklənəcək, təchizat zəncir-




müddəti müəyyən ediləcək və maliyyə dəstəyi göstəriləcək.

Bundan əlavə, Aİ təsərrüfat səviyyəsində heyvandarlıqdan yaranan istixana qazı emissiyalarının hesablanması üçün uyğunlaşdırılmış metodlar hazırlayacaq. İqlim dəyişikliyi ilə mübarizə tədbirləri, qida maddələrinin səmərəli idarəolunması və təbii resurslardan davamlı istifadə təşviq ediləcək. Xüsusilə tərkedilmə riski yüksək olan həssas bölgələrdə davamlı heyvandarlığın yenidən inkişaf etdirilməsi məqsədilə üzv dövlətlərlə birgə xüsusi fəaliyyət planı hazırlanacaq.

Aİ-də istehsal olunan davamlı heyvandarlıq məhsulları təşviqat siyasəti, coğrafi göstəricilər, "Avropa məhsulu al" kampaniyası və ekoloji təmiz istehsal sistemləri vasitəsilə... ləri möhkəmləndiriləcək və protein bitkilərinə yatırımlar artırılacaq.

Aİ-nin məlumatına əsasən, heyvandarlıq sektoru birliyin kənd təsərrüfatında yaradılan əlavə dəyərin təxminən 40 faizini formalaşdırır və illik dövriyyəsi 400 milyard avroya çatır. Sektor təxminən 4 milyon təsərrüfatda 7 milyon nəfərin məşğulluğunu təmin edir.

2025-ci ilin göstəricilərinə görə, Aİ-də 132 milyon donuz, 72 milyon iribuynuzlu heyvan, 54 milyon qoyun, 10 milyon keçi və təxminən 1,6 milyard ev quşu var. Aİ-nin yeni strategiyasının özünü necə doğruldacağını isə zaman göstərəcək.

**_Mübariz ABDULLAYEV_**

# Fransadakı qondarma "Artsax nümayəndəliyi"nin fəaliyyəti Azərbaycan-Ermənistan sülh prosesinə kölgə salır

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində mühüm irəliləyişlərin əldə olunduğu, sülh sazişinin mətni üzrə razılığın təmin edildiyi bir vaxtda revanşist dairələrin informasiya müstəvisində fəallaşması təsadüfi deyil. Mövcud olmayan qondarma "Artsax"ın Fransadakı nümayəndəsi Hovanes Gevorkianın "Atlantico.fr" portalında dərc olunan məqaləsi də regionda formalaşmış yeni reallıqları şübhə altına almağa və Azərbaycan-Ermənistan sülh gündəliyinə kölgə salmağa yönəlmiş növbəti cəhd kimi qiymətləndirilə bilər.

Bu cür iddiaların mahiyyətini anlamaq üçün Ermənistanın uzun illər həyata keçirdiyi işğal siyasətinə nəzər salmaq kifayətdir.

AZƏRTAC bununla bağlı məqaləni təqdim edir.

Ermənistan Azərbaycan ərazilərini təxminən 30 il işğal altında saxladığı dövrdə beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq qondarma "Dağlıq Qarabağ Respublikası" adlı separatçı rejim yaratmışdı. Bu qeyri-qanuni qurumun yaradılmasında əsas məqsəd Ermənistanın işğalçı dövlət kimi məsuliyyətini gizlətmək, işğal faktını pərdələmək, münaqişəni guya "daxili öz müqəddəratını təyinetmə" məsələsi kimi təqdim etmək və beynəlxalq ictimaiyyəti çaşdırmaq idi.

Lakin bu cəhd tamamilə iflasa uğradı. Dünyanın heç bir dövləti qondarma rejimi tanımadı. BMT Təhlükəsizlik Şurasının qətnamələrində və digər beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü birmənalı şəkildə dəstəkləndi, işğal altındakı bütün ərazilər ölkəmizin ayrılmaz tərkib hissəsi kimi qəbul olundu. Beləliklə, Ermənistanın separatçı rejim yaratmaq cəhdi heç vaxt beynəlxalq hüquqi legitimlik qazanmadı.

Şanlı Zəfər - 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi regionda yeni siyasi-hüquqi reallıq formalaşdırdı. Azərbaycan BMT Nizamnaməsindən irəli gələn özünümüdafiə hüququndan istifadə edərək işğal altında olan ərazilərinin böyük hissəsini azad etdi. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə ölkənin bütün suveren ərazisində konstitusiya quruluşu tam təmin olundu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi və separatçı rejimin mövcudluğuna birdəfəlik son qoyuldu. Bununla da "Artsax Respublikası" adı altında hər hansı qurumun mövcudluğundan danışmaq üçün hüquqi və siyasi əsas qalmadı.



Məhz buna görə də bu gün özünü "Artsax Respublikası"nın nümayəndəsi kimi təqdim edən şəxslərin bəyanatları hüquqi baxımdan heç bir status daşımır. Onların çıxışları artıq mövcud olmayan bir qurumun adından səsləndirilən siyasi iddialardan başqa məna ifadə etmir və regionda yeni reallıqları qəbul etmək istəməyən revanşist dairələrin informasiya kampaniyasının tərkib hissəsi kimi qiymətləndirilir.

Münaqişənin başa çatmasından dərhal sonra isə məhz Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması təşəbbüsü ilə çıxış etdi və sülh müqaviləsinin əsas prinsiplərini irəli sürdü. Aparılan danışıqlar nəticəsində tərəflər sülh sazişinin mətni üzrə razılığa gəldilər və sənəd Vaşinqtonda paraflandı. Bu, Cənubi Qafqazda uzunmüddətli sülh və təhlükəsizliyin təmin olunması istiqamətində mühüm mərhələ oldu.

Lakin sülh gündəliyinin irəliləməsi revanşist qüvvələrin fəaliyyətini daha da intensivləşdirdi. Xaricdə fəaliyyət göstərən erməni diasporu və ona bağlı lobbi dairələri müxtəlif informasiya kampaniyaları vasitəsilə normallaşma prosesini pozmağa, artıq hüquqi və siyasi baxımdan mövcud olmayan separatçı qurumun adından çıxış edərək beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür yaratmağa çalışırlar. Hovanes Gevorkianın məqaləsi də bu cəhdlərin növbəti nümunəsidir.

Bu xüsusda Fransadakı erməni diasporu və ona bağlı fransız lobbistləri xüsusi olaraq seçilirlər. Son illər məhz Fransa artıq mövcud olmayan qondarma qurumun nümayəndələrinin çıxışları üçün əsas platformalardan birinə çevrilib. Müxtəlif media orqanlarında, siyasi dairələrdə və ictimai tədbirlərdə bu şəxslərə tribuna verilməsi, onların əsassız iddialarının tirajlanması regionda formalaşmış yeni reallıqları qəbul etmək istəməyən revanşist qüvvələrin fəaliyyətinin davamı kimi qiymətləndirilə bilər.

Paradoks ondan ibarətdir ki, son 30 il ərzində ATƏT-in Minsk qrupunun həmsədri kimi vasitəçilik missiyasını üzərinə götürmüş Fransa işğal dövründə Ermənistanın beynəlxalq hüquqazidd siyasətinə münasibətdə prinsipial mövqe nümayiş etdirmədi. Münaqişə başa çatdıqdan sonra isə Parisin sülh prosesini təşviq edəcəyi gözlənilsə də, müşahidə olunan mənzərə bunun əksini göstərir. Bu gün Fransanın rəsmi siyasəti bir çox hallarda erməni diasporunun revanşist mövqeyi ilə üst-üstə düşür.

Bu ziddiyyət xüsusilə Fransanın Ermənistanla hərbi əməkdaşlığında özünü göstərir. Uzun illər vasitəçi kimi çıxış etmiş bir dövlətin hazırda Ermənistanın hərbiləşdirilməsində fəal iştirakı, onu müasir silahlarla təmin etməsi və əsas silah tədarükçülərindən birinə çevrilməsi regionda etimad mühitinin möhkəmlənməsinə deyil, əksinə, yeni gərginlik risklərinin artmasına xidmət edir. Belə siyasət Ermənistan daxilində revanşist meyilləri gücləndirir və sülh prosesinə mənfi təsir göstərir.

Narahatlıq doğuran digər məqam isə hüquqi baxımdan mövcud olmayan qondarma "Artsax nümayəndəliyi"nin Fransa ərazisində fəaliyyətini davam etdirməsinə şərait yaradılmasıdır. Heç vaxt beynəlxalq hüququn subyekti kimi tanınmamış, 2023-cü ildə isə mövcudluğuna birdəfəlik son qoyulmuş bir qurumun "nümayəndəliyinin" fəaliyyət göstərməsi beynəlxalq hüquqdan irəli gələn öhdəliklərlə uzlaşmır və dövlətlərin suverenliyi ilə ərazi bütövlüyünə hörmət prinsipi ilə ziddiyyət təşkil edir.

Bu baxımdan haqlı suallar yaranır: necə ola bilər ki, hüquqi baxımdan mövcud olmayan bir qurumun nümayəndəsi Fransa daxilində müxtəlif görüşlər keçirir, tədbirlərdə iştirak edir və yerli media orqanlarında Azərbaycan əleyhinə məqalələrlə çıxış edir? Əgər söhbət beynəlxalq hüququn tanımadığı bir təsisatdan gedirsə, onun fəaliyyətinə göstərilən bu münasibət Parisin bəyan etdiyi beynəlxalq hüquqa hörmət prinsipi ilə necə uzlaşır?

Belə bir yanaşma Fransanın Azərbaycanla dostluq və əməkdaşlıq münasibətlərinə dair bəyanatları ilə də ziddiyyət təşkil edir. Başqa bir dövlətin suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş, hüquqi əsası olmayan təsisatın fəaliyyətinə imkan verilməsi dostluq və qarşılıqlı hörmət prinsipləri ilə bir araya sığmır.

Qeyri-qanuni şəkildə mövcud olmuş və bu gün artıq tamamilə tarixə qovuşmuş separatçı qurumun "nümayəndəliyinin" fəaliyyətini davam etdirməsi Fransanın həqiqi niyyətləri ilə bağlı haqlı suallar doğurur. Belə bir fəaliyyətə şərait yaradılması Azərbaycana qarşı əsassız ərazi iddialarının informasiya müstəvisində yaşadılmasına, revanşist qüvvələrin ruhlandırılmasına və regionda yeni qarşıdurma risklərinin qorunub saxlanmasına xidmət edir. Əks halda, heç bir dövlət öz ərazisində başqa bir dövlətin suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş, hüquqi əsası olmayan bir təsisatın fəaliyyət göstərməsinə imkan verməz.

Bu gün Cənubi Qafqazda yeni reallıq formalaşıb. Azərbaycanın suverenliyi bütün ərazisində tam bərpa olunub, separatizmə son qoyulub və regionun əsas gündəliyi sülh, əməkdaşlıq və sabitliyin möhkəmləndirilməsidir. Bu reallıqları inkar etməyə yönəlmiş informasiya kampaniyaları, artıq mövcud olmayan qondarma qurumun yenidən gündəmə gətirilməsi və revanşist çağırışların təşviqi nə tarixin gedişini, nə də beynəlxalq hüququn təsbit etdiyi həqiqətləri dəyişə bilər. Davamlı sülhün təmin olunmasının yeganə yolu regionda formalaşmış yeni siyasi-hüquqi reallıqların qəbul edilməsi, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət göstərilməsi, revanşist təsəvvürlərin səsatdən və separatizmi təşviq edən bütün yanaşmalardan imtina olunmasından keçir.

# Məktəblərdə yeni dəyərlər sistemi formalaşır...

## “Ümumi təhsil haqqında” qanuna dəyişiklik nəyi dəyişəcək?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti üzrə hazırlanmışdır

Millilik və dünyəvilik ümumi təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri sırasına daxil edilir. Bu, Milli Məclisin iyulun 7-də keçirilən iclasında müzakirəyə çıxarılan “Ümumi təhsil haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, millilik və dünyəvilik - milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi ümumi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi ümumi təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri sırasında yer alacaq. Qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.

Bundan başqa, parlamentin iclasında “Ümumi təhsil haqqında” qanun layihəsinin müzakirəsi zamanı müəllimlər üçün geyim tələblərinə dair vahid yanaşmanın tətbiq olunacağı bildirilib. Layihəyə əsasən, “Dövlət ümumi təhsil müəssisəsində təhsilverənlər üçün geyim ilə bağlı tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunacaq.



Ümumi təhsil sahəsində valideynlərin və ya digər qanuni nümayəndələrin vəzifələri sırasına dövlət ümumi təhsil müəssisəsində övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) tərəfindən geyim forması ilə bağlı tələblərə riayət olunmasını təmin etmək də daxil edilir.

**Təhsildə millilik və dünyəviliyin vəhdəti**

Sözügedən məsələlərlə bağlı “Yeni Azərbaycan”a açıqlama verən təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, “Ümumi təhsil haqqında” qanuna təklif edilən bu dəyişiklik ilk baxışdan sadə hüquqi əlavəyə bənzəsə də, əslində, təhsil sisteminin ideoloji və dəyər əsaslarının daha aydın şəkildə müəyyənləşdirilməsi baxımından əhəmiyyətli addım kimi qiymətləndirilə bilər. Onun sözlərinə görə, millilik və dünyəviliyin dövlət siyasətinin əsas prinsipləri sırasında ayrıca göstərilməsi onu deməyə əsas verir ki, gələcəkdə təhsil prosesində milli kimliyin qorunması ilə müasir, elmi və dünyəvi təhsil modelinin inkişafı paralel şəkildə prioritet hesab ediləcək.

“Hesab edirəm ki, bu yanaşma müasir dövrdə xüsusilə aktualdır. Qloballaşmanın sürətləndiyi, informasiya axınının sərhəd tanımadığı bir şəraitdə məktəb yalnız bilik verən müəssisə deyil, həm də milli mənsubiyyət hissini, Vətənə bağlılığı, ana dilinə, tarixə və mədəni irsə hörməti formalaşdıran əsas ictimai institutlardan biridir. Bununla yanaşı, dünyəvilik prinsipi şagirdlərin elmi təfəkkürə əsaslanan, müasir çağırışlara cavab verən və beynəlxalq rəqabətə hazır bilik və bacarıqlarla yetişdirilməsini təmin edən vacib istiqamət olaraq öz əhəmiyyətini qoruyur.



Burada ən mühüm məqamlardan biri millilik və dünyəviliyin bir-birinə alternativ anlayışlar kimi deyil, bir-birini tamamlayan prinsiplər kimi təqdim edilməsidir. Yəni milli-mənəvi dəyərlərə sadiq olmaq eyni zamanda müasir elmə, innovasiyalara, texnologiyalara və universal təhsil standartlarına açıq olmaqla ziddiyyət təşkil etmir. Əksinə, müasir təhsil sistemləri məhz bu balansın qorunmasına çalışırlar”.

**Müasir dünyanın tələblərinə uyğun model...**

Ekspert qeyd edib ki, qanun edilən bu dəyişiklik gələcəkdə təhsil proqramlarının, tərbiyə konsepsiyasının, müəllim hazırlığının və məktəbdaxili fəaliyyətlərin təşkilində də müəyyən istiqamətverici rol oynaya bilər:

“Lakin hüquqi normanın real nəticə verməsi üçün onun praktik tətbiqi xüsusi əhəmiyyət daşıyacaq. Əsas məqsəd bu prinsiplərin yalnız qanun mətnində deyil, dərsliklərin məzmununda, müəllimlərin peşəkar fəaliyyətində, məktəb mühitində və şagirdlərin gündəlik təhsil həyatında da öz əksini tapması olmalıdır.

Ümumilikdə, qanuna təklif olunan bu əlavə Azərbaycan təhsilinin həm milli dəyərlər üzərində inkişaf edən, həm də müasir dünyanın tələblərinə uyğun formalaşan modelinin hüquqi əsaslarının daha da möhkəmləndirilməsi istiqamətində atılan mühüm addımlardan biri kimi dəyərləndirilə bilər”.

**Müəllimin geyimi məktəb mədəniyyətini formalaşdırır**

Müəllimlər üçün geyim tələblərinə dair vahid yanaşmanın tətbiqinə gəlincə, ekspert bildirib ki, bu yanaşma ümumi təhsil müəssisələrində vahid məktəb mühitinin formalaşdırılması baxımından mühüm addım kimi qiymətləndirilə bilər:

“Çünki məktəb ilk növbədə tədris və tərbiyə məkanıdır və burada geyimlə bağlı müəyyən edilmiş ümumi qaydalar nizam-intizamın, təşkilatçılığın və institusional mədəniyyətin gücləndirilməsinə xidmət edir. Müəllim cəmiyyətdə nümunə göstərilən peşə sahiblərindən biridir və onun peşəkar davranışı ilə yanaşı, xarici görünüşü də məktəbin ümumi mühitinin bir hissəsi hesab edilir”.

*Yeganə BAYRAMOVA*

# Yaxın Şərq: müharibəyə davam, yoxsa danışıqlar masasına qayıdış...

Yaxın Şərqdə iyulun 7-dən yenidən alovlanan qarşıdurmanın atəşkəs rejiminə geri qaytarılması istiqamətində səylər intenvsivləşdirilib. ABŞ Prezidenti Donald Trampın Ankara Sammiti çərçivəsində “İranla danışıqlar bitdi” deməsinə baxmayaraq, məsələnin yenidən diplomatik müstəviyə qaytarılması istiqamətində fəaliyyət aparılır. “Axios”un məlumatına görə, regional vasitəçilər ABŞ ilə İran arasında artan gərginliyi azaltmağa çalışır və nüvə sazişi üzrə daha intensiv danışıqların aparılmasını təklif edir.

**Yenidən danışıqlara doğru...**

Nəşrin mənbələrinin məlumatına görə, regional hökumətlər iki ölkə arasında artan gərginliyi azaltmağa çalışır. Vasitəçi ölkələrdən birinin nümayəndəsi bildirib ki, Hörmüz boğazında İranın son hücumları Tehran rejimi daxilində ABŞ ilə İran arasında anlaşma memorandumuna qarşı olan və onu pozmağa çalışan elementlər tərəfindən həyata keçirilib. Mənbələr Qətər, Pakistan, Misir və Səudiyyə Ərəbistanından olan rəsmilərin gərginliyi azaltmaq üçün ABŞ və İran rəsmiləri ilə çoxsaylı telefon danışıqları apardıqlarını bildiriblər. Vasitəçilikdə iştirak edən regional mənbə bildirib: “Hər iki tərəflə gərginliyin azaldılması barədə razılığa gəlmək və sonra texniki qruplar arasında danışıqların növbəti mərhələsi üçün tarix təyin etmək üçün geniş diplomatik səylər göstərilir”.



CNN telekanalı da Pakistan və Qətərin İran və ABŞ nümayəndələrini yenidən danışıqlar masasına qaytarmağa çalışdığını bəyan edib. Məlumata görə, İslamabad və Doha İran ilə ABŞ arasında İsveçrədə keçirilən danışıqlarda əsas vasitəçilərdən olublar. CNN həmçinin Qətər və Pakistanın tərəfləri yenidən dialoqa cəlb etmək üçün atdığı addımlar barədə ətraflı məlumat verməyib.



**Həm döyüşür, həm də məsləhətləşirlər...**

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp iyulun 8-də İranı ikitərəfli razılaşmaları pozmaqda ittiham edərək Tehranla atəşkəsin artıq qüvvədə olmadığını bəyan edib. Kanal bildirib ki, ABŞ Yaxın Şərqdə gərginliyin daha da artmasının qarşısını almaq üçün diplomatik səyləri davam etdirir. Məlumata görə, ABŞ qüvvələri əlavə hərbi əməliyyatlar keçirməyə hazır vəziyyətdədir. Bununla belə, Vaşinqton hazırda diplomatik səylərə üstünlük verir. Mənbələr vəziyyətin sürətlə dəyişdiyini və yeni zərbələrin istisna olunmadığını bildiriblər. Qeyd edək ki, bundan əvvəl “Reuters” agentliyi ABŞ administrasiyasındakı mənbəyə istinadla Vaşinqton və Tehran arasında texniki məsləhətləşmələrin davam etdiyini xəbər vermişdi. Bildirilirdi ki, ABŞ və İran nümayəndələri arasında texniki məsləhətləşmələr davam edir. Mənbənin sözlərinə görə, Vaşinqton Tehranla həll yolu tapmağa sadiqdir və bu istiqamətdə texniki danışıqlar davam etdirilir. Agentliyin məlumatına əsasən, tərəflər arasında əvvəlki təmaslar zamanı gələcək müzakirələr üçün zəmin yaradılıb. Qətər və Pakistanın vasitəçiliyi ilə keçirilən ABŞ-İran görüşlərindən sonra tərəflərin konstruktiv mühitdə fikir mübadiləsi apardığı bildirilib.

**Trampa növbəti sui-qəsd?**

Bu arada “The Wall Street Journal” (WSJ) qəzeti İsrail kəşfiyyatının İranın Trampa sui-qəsd planı hazırladığını göstərən məlumatlardan xəbər tutub. WSJ-nin məlumatına görə, İsrail ABŞ-a Tehranın Trampa sui-qəsd planı hazırladığını göstərən kəşfiyyat məlumatları təqdim edib. Nəşr qeyd edib ki, iki gün əvvəl Tramp jurnalistlərə sui-qəsdə məruz qala biləcəyini deyibmiş - O, “Mən İranın sui-qəsd siyahısında birinciyəm” deyə qeyd edib. “The New York Times” qəzetinin məlumatına görə, ertəsi gün Tramp NATO-nun Ankaradakı sammitindən Qətərin ötən il ona verdiyi və tədbirə uçduğu təyyarə əvəzinə, köhnə Air Force One (Air Force One) təyyarəsi ilə yola düşüb. Məqalədə deyilir ki, Amerika lideri bu qərarı Məxfi Xidmətin məsləhəti ilə verib. Xatırladaq ki, mart ayında Tramp İran hakimiyyətinin ona iki dəfə sui-qəsd cəhdi etdiyini bildirmişdi. O zaman iddia edilən sui-qəsd cəhdləri ABŞ və İsrailin İrana zərbə endirmək qərarı və ali dini lider Seyid Əli Xameneinin sui-qəsdi ilə əlaqələndirilmişdi. Tehran isə ABŞ rəsmilərinə qarşı sui-qəsd cəhdləri planlaşdırmaq ittihamlarını təkzib etmişdi.

**Gərginliyin əsas səbəbi...**

İran ilə ABŞ arasında sülh danışıqları gedən zaman birdənbirə qarşılıqlı bombardmanın başlama səbəbləri ilə bağlı araşdırmalar aparılır. “The Wall Street Journal” qəzeti ABŞ və İran arasında yeni müharibənin yenidən necə alovlandığını açıqlayıb. Qeyd olunub ki, ABŞ və İran arasında yeni bir gərginliyə səbəb sülh memorandumundakı bir bəndin qeyri-müəyyən ifadəsi olub. Söhbət Hörmüz boğazının açılması şərtlərindən gedir. Belə ki, iyunun ortalarında ABŞ və İran arasında imzalanan anlaşma memorandumunda Hörmüz boğazının açılması nəzərdə tutulurdu, lakin bunun əvəzinə bəndlərindən birinin qeyri-müəyyən ifadəsi səbəbindən gərginliyə səbəb olub. Nəşrin qeyd etdiyi kimi, tərəflər müqavilənin 5-ci bəndini fərqli şərh edirlər. Maddədə İranın “gəmilərin təhlükəsiz keçidini təmin etmək üçün hər cür səy göstərəcəyi” və su yolunun gələcək idarəçiliyini müəyyən etmək üçün Omanla dialoq aparacağı bildirilir. WSJ qeyd edir ki, mətndə Tehranın minalar da daxil olmaqla hərbi manevrləri aradan qaldırmaq və yol haqlarına qoyulan qadağa da yer alır. Bildirilir ki, Tramp administrasiyasının rəsmiləri bu bəndi boğazın açılmasının açarı kimi görürdülər, lakin İran hakimiyyəti bundan “İslam Respublikasına su yolu üzərində müstəsna nəzarət verən maksimalist şərh” üçün istifadə edib.



İran parlamentinin spikeri Məhəmməd Bağır Qalibaf da “X”-dəki məqaləsində 5-ci bənddən bəhs edərək bildirib ki, “Hörmüz boğazı yalnız İran razılaşmaları ilə açılacaq, Amerika təhdidləri ilə deyil”. Eyni zamanda, WSJ ABŞ və Fars körfəzindəki ərəb müttəfiqlərinin Tehranın Hörmüz boğazına nəzarət etməsini istəmədiyini vurğulayır.

**Tramp ilə Netanyahu telefonla danışdı...**

Bu arada İsrailin Baş naziri Binyamin Netanyahu və ABŞ Prezidenti Donald Tramp arasında telefon danışığı olub. Telefon danışığı zamanı Körfəz bölgəsindəki vəziyyət müzakirə olunub. “The Times of Israel” qəzetinin İsrail Baş nazirinin ofisinə istinadən yaydığı məlumatda bildirilib ki, Tramp Netanyahuya ABŞ ordusunun İrana qarşı həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Danışıq zamanı Netanyahu qonşu ölkələrdə İsrailin “bufer zonalarının” saxlanılmasının vacibliyini vurğulayıb. Hazırda belə zonaların Livan və Suriyada mövcud olduğu bildirilir.

*P.İSMAYILOV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Qələmi ilə cəhalətə meydan oxuyan maarifçi!



Azərbaycanın zəngin ədəbi və ictimai fikir tarixində elə şəxsiyyətlər var ki, onların adı yalnız yaşadıqları dövrün deyil, bütöv bir xalqın intellektual oyanışının, milli özünüdərk prosesinin və müasir düşüncə tərzinin formalaşmasının simvoluna çevrilib. Belə simalardan biri yazıçı-dramaturq, filosof, ictimai xadim, Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundovdur. Sabah dahi yazıçının anadan olmasından 214 il ötür.

1812-ci il iyulun 12-də dünyaya göz açan Mirzə Fətəli Axundov hələ gənc yaşlarından elmə, biliyə və maarifçiliyə böyük maraq göstərərək Şərq və Qərb mədəniyyətini dərindən öyrənib, fərqli dünyagörüşünü formalaşdırıb, yaşadığı dövrün ictimai problemlərini diqqətlə müşahidə edib. Axundov bütün bunları gələcək yaradıcılığının əsas istiqamətinə çevirərək xalqın inkişafının yalnız savadlanmaqdan, azad düşünməkdən və elmi biliklərə yiyələnməkdən keçdiyini qətiyyətlə müdafiə edib.

Mirzə Fətəli Axundov Azərbaycan dramaturgiyasının banisi kimi tarixə düşməklə kifayətlənməyib, eyni zamanda, realist ədəbiyyatın əsasını qoyub, satiranın gücündən məharətlə istifadə edərək cəmiyyətin nöqsanlarını açıq şəkildə göstərib. Dahi yazıçı insanları düşünməyə, dəyişməyə və tərəqqiyə doğru addımlamağa çağırıb. Onun qələmə aldığı komediyalar bu gün də yalnız ədəbi əsər kimi deyil, həm də ictimai tənqid nümunəsi, insan psixologiyasını və dövrün sosial problemlərini ustalıqla əks etdirən qiymətli irs kimi böyük maraq doğurur.

Axundovun yaradıcılığına nəzər saldıqda aydın görünür ki, o, cəmiyyətin inkişafına mane olan bütün amilləri cəsarətlə tənqid edir, mövhumatı, rüşvətxorluğu, savadsızlığı, cahilliyi və köhnə düşüncə tərzini kəskin satira ilə ifşa edir. İnsanların taleyini dəyişdirə biləcək ən güclü silahın məhz elm və maarif olduğunu dönə-dönə vurğulayır. Buna görə də onun əsərləri zamanın sınağından çıxaraq bu gün də öz aktuallığını qoruyub saxlayır və müxtəlif nəsillər tərəfindən maraqla oxunur.

Onun “Molla İbrahimxəlil kimyagər”, “Müsyö Jordan və Dərviş Məstəli şah”, “Hacı Qara”, “Sərgüzəşti-vəziri-xani-Lənkəran” və digər məşhur əsərləri təkcə Azərbaycan oxucusunun deyil, bütün Şərq ədəbiyyatının inkişafına mühüm töhfə verib, dramaturgiya sahəsində yeni bir mərhələnin əsasını qoyub, teatr sənətinin inkişafına güclü təkan verib.

Mirzə Fətəli Axundov yalnız yazıçı və dramaturq deyildi, o, eyni zamanda, böyük filosof, mütəfəkkir, publisist və islahatçı idi. Əlifba islahatı ideyasını irəli sürərək xalqın savadlanmasının daha da asanlaşdırılması üçün yeni yollar axtarıb, təhsilin inkişafının milli tərəqqinin əsas şərti hesab edib. Əlifbada dəyişiklik etmək ideyası ilk dəfə 19-cu əsrdə meydana çıxmışdı. İdeyanı irəli sürən Mirzə Fətəli Axundov ərəb əlifbasının Azərbaycan üçün yararsız olduğunu göstərərək yazırdı: “Ərəblər bizim minillik səltənətimizi zavala uğratdılar; şan-şövkətimizi bada verdilər, vətənimizi xarabazara çevirdilər və bütün bunlara əlavə olaraq, bizim boynumuza elə bir əlifba da bağlamışlar ki, onun sayəsində hətta adi savad sahibi olmaq belə bizim üçün ən çətin işlərdən olmuşdur”. Axundov ərəb əlifbasının xüsusilə tədris üçün yaramadığını, çox ağır olduğunu göstərərək deyirdi ki, bu əlifbanı 3-4 ilə ancaq öyrənmək olur, ilk gündə əlifbanı öyrənmək uşağa riyaziyyatı öyrənməkdən çətin gəlir, elə buna görə də uşaq bezir və ona nifrət edir. O, ərəb əlifbasının bütün çatışmazlıqlarını müəyyən etdikdən sonra yeni bir əlifba layihəsi üzərində çalışmağa başlayıb. Həmçinin təkcə Azərbaycan yazısını deyil, ümumiyyətlə, ərəb əlifasından istifadə edən bütün xalqların yazılarını asanlaşdırmağı nəzərdə tuturdu.

Tarix böyük şəxsiyyətləri yalnız onların yazdıqları əsərlərlə deyil, cəmiyyətə bəxş etdikləri düşüncə tərzi ilə yaşadır. Mirzə Fətəli Axundov da məhz belə ölməz simalardandır. Çünki onun qələmi insanların zehnində azadlıq, elm, maarif və tərəqqi ideyalarının cücərməsinə xidmət edib. Axundzadə 1878-ci il 10 martda ürək xəstəliyindən vəfat edib və Tbilisidə dəfn olunub.

***Yeganə BAYRAMOVA***

# Uşaqlar üçün sosial realizm romanları yazılır və yeni mədəniyyət formalaşdırılır



***Məqsəd Nur***

Böyük Britaniyada sosial realizm (sosializm realizmlə qarışdırmamalı!) hekayəçiliyi o həddə gəlib çatıb ki, nəşriyyatlar bu istiqamətdə yazanlara kitab mükafatı vermək üçün yarışa girib. “The Guardian” builki mükafatlardan birinin qalibi, qaradərili qadın yazıçı Patris Lourens barədə məqalə dərc edib və uşaqların mütaliəsi məsələsinə xüsusi diqqət yetirib. Lourens deyir: “Uşaq kitablarının ağdərili və ölü insanlar tərəfindən yazıldığını güman edirdim”.

Hal-hazırda Lourensin 59 yaşı var. O artıq böyüyüb və başa düşüb ki, uşaq kitablarını təkcə ağdərili və ölü insanlar yazmırmış...

Patris Lourens oxumaqdan təcrid olunmuş uşaqların mütaliəyə cəlb edilməsi istiqamətində fəaliyyətə başlayıb. Britaniya hökuməti uşaqlar arasında savadlılıq böhranı ilə mübarizə aparmaq üçün “Milli Mütaliə İli” də elan edib. Milli Savadlılıq Fondunun məlumatına görə ötən il 8-18 yaş arasındakı hər üç nəfərdən yalnız biri boş vaxtlarında oxumaqdan zövq aldığını bildirib. Bu isə son iyirmi ildə 36% azalma - rekort səviyyədə aşağıdüşmə göstəricisidir.

Axı nəyi oxusunlar? Harri Potter dövrü arxada qalıb. Yazılan uşaq kitabları isə cizgi filmlərinin “ilan-qurbağa” formalarıdır.  Deməli, sosial realizm köməyə gələcək. Bu yolla da uşaqları nağıllardan, əfsanə və uydurmalardan, fantaziya quraraq düşünmək vərdişlərdən ayırıb reallığa - bu günə, smart dövrə hazırlamaq lazım olacaq. Dolayı yollar axtarılsa da, uşaq və yeniyetmə dünyasına belə tezliklə nüfuz etmək çətin işdir...

Lourens deyir ki, uşaqlar oxumursa, günahı yalnız valideynlərin üzərinə atmaqla daha dərin böhrana girə bilərik. Kitablar bahadır, kitabxanalar bağlanır, ailələr böyük maliyyə təzyiqi altındadır, yaşayış xərcləri, işsizlik və bu kimi problemlər mütaliəni ikinci plana atır.

O, həmçinin məktəblərdə mütaliənin qiymətləndirmə ilə həddindən artıq sıx əlaqəli olduğunu iddia edir: “Esse yaza bilmək üçün “mütləq filan kitabı oxumaq lazımdır” deyən müəllim anlamalıdır ki, belə dedikcə mütaliə funksional hala gəlir. Mütaliənin zövq tərəfi unudulur, uşaq mütaliədən bezir.”

**Necə də bənzər haldır...**

Məktəblərimizdə, evdə, mediada uşaqlara mütləq filan-filan kitabları oxumalısan deməklə, reklam və dəbin ağına düşüb getməklə biz də sosial realizm yolunun başlanğıcındayıq. Lakin bu tamamilə fərqli reallıqdır - nəşr edilən uşaq kitablarını nəzərdən keçirərkən görürük ki, əksəriyyəti yad mədəniyyətlərin yeridilməsi, təkrar istehsal və yamsılamadır. Bunun içində “müasirlik” də var: qlamur dizayn, yad dillərin axışı, ənənəvi milli üslubun bərbad hala salınması, təfəkkür sapmaları...

Uşaq durub neyləsin?

## *İdman*

# Modriç Xorvatiya millisindəki karyerasını başa vurmaq niyyətində deyil



Xorvatiya millisinin kapitanı Luka Modriç yığmadakı karyerasını başa vurmaq fikrində deyil. 40 yaşlı yarımmüdafiəçi ölkəsini təmsil etmək və Slaven Biliç baş məşqçi postuna təyin olunacağı təqdirdə, onun rəhbərliyi altında oynamaq istəyir. Sentyabrın 9-da 41 yaşı tamam olacaq təcrübəli futbolçu 2006-cı ilin martından Xorvatiya seçməsinin formasını geyinir və komandanın tarixində ən çox oyun keçirən futbolçudur. Modriçə millidə debüt etmək imkanını 2006-cı ildə məhz Slaven Biliç vermişdi. Qeyd edək ki, Xorvatiya millisi DÇ-2026-nın 1/16 final mərhələsində Portuqaliya yığmasına 1:2 hesabı ilə uduzaraq mübarizəni dayandırıb.

# İngiltərə millisində virus təhlükəsi - Rays heyətdən çıxarıldı

İngiltərə millisinin yarımmüdafiəçisi Deklan Rays DÇ-2026-nın 1/4 finalında Norveçə qarşı keçiriləcək oyun öncəsi komandadan təcrid edilib. Buna futbolçuda aşkarlanan infeksion xəstəlik səbəb olub. “Daily Mail”in məlumatına görə, Rays əvvəldən dizaltı vətərində və bel nahiyəsində problemlər yaşayırdı. Xəstəliyin əlavə olunması isə vəziyyəti daha da ağırlaşdırıb. İngiltərə millisinin həkimləri virusun komandada yayılmasının qarşısını almaq üçün 26 yaşlı futbolçunu komandadan ayırıb.Yarımmüdafiəçi xəstəlik səbəbindən son iki məşqi də buraxıb. Bildirilir ki, komanda daxilində virusun yayılması nəzarət altına alınıb.



# “Samsunspor”un sabiq futbolçusu Azərbaycan klubuna keçib

“Şəfa” Futbol Klubu yarımmüdafiəçi Musa Quelini heyətinə qatıb. Klubdan AZƏRTAC-a verilən məlumata görə, 27 yaşlı fransalı futbolçu ilə 1 illik müqavilə imzalanıb. Queli son olaraq



Şimali Makedoniyanın “Tikves” klubunda çıxış edib. O, karyerası ərzində Türkiyədə “Samsunspor”un, Fransada isə “Dankerk”, “Red Star”, “Valansyen” və “Loryan” klublarının formasını geyinib.

# “Qəbələ” heyətini yeni futbolçu ilə gücləndirib

“Qəbələ” hücum xəttini yeni futbolçu ilə gücləndirib. Bölgə təmsilçisi Kərim Rossini transfer edib. Rossi ötən mövsümü “Şamaxı”da keçirib.




# Azərbaycan boksçuları beynəlxalq turnirdə mübarizə aparacaqlar

İyulun 11-də Almaniyanın Frankfurt şəhərində 19 yaşadək boksçular arasında beynəlxalq turnir start götürəcək. Boks Federasiyasından AZƏRTAC-a bildirilib ki, 4 gün davam edəcək yarışda Azərbaycan millisi də mübarizə aparacaq. Oğlanların mübarizəsində Əli Əliyev (50 kiloqram), Nihat Qasımov (55 kiloqram), Əli Baxışov, Sübhan Babayev, Toğrul Quliyev (hər üçü 60 kiloqram), Şahin Aslanov (65 kiloqram), Rza Rzayev (70 kiloqram), Renat Qiyaslı (75 kiloqram), Səftər Məmmədzadə və Məhəmməd Cəfərova (hər ikisi +90 kiloqram) qüvvələrini sınayacaqlar. Qızlarda isə Banuçiçək Nəsirli (48 kiloqram) ilə Gülər Hüseynova (51 kiloqram) rinqə çıxacaqlar. Qeyd edək ki, turnirdə ölkəmizi Elxan Quliyev hakim kimi təmsil edəcək.

# Mbappe Fransa tarixində ilkə imza atdı



Fransa millisinin hücumçusu Kilian Mbappe yığma karyerasında yeni uğura imza atıb. 27 yaşlı futbolçu Fransa millisinin tarixində 100 qol töhfəsinə çatan ilk oyunçu olub. Mbappe yığmada keçirdiyi 104 oyunda 64 qol vurub və 36 məhsuldar ötürmə edib. Qeyd edək ki, Mbappe Mərakeşlə 1/4 final matçında 1 qol vurub və 1 məhsuldar ötürmə edib. Fransa rəqibini 2:0 hesabı ilə məğlub edərək yarımfinala yüksəlib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4409**
**Sifariş: 876**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova